# TƏHSİLİN İQTİSADİYYATI, MALİYYƏLƏŞDİRİLMƏSİ VƏ TƏHSİL MÜƏSSİSƏLƏRİNİN MADDİ-TEXNİKİ BAZASININ MÖHKƏMLƏNDİRİLMƏSİ SAHƏSİ ÜZRƏ 2010-CU İLDƏ GÖRÜLMÜŞ İŞLƏRƏ DAİR HESABAT

## I. 2010-cu ildə iqtisadi durum, dövlət büdcəsindən təhsilə ayrılan xərclər.

2010-cu hesabat ili dünya iqtisadiyyatında baş vermiş qlobal maliyyə böhranının mənfi nəticələrinin aradan qaldırılması istiqamətində tədbirlərin görülməsi, əksər ölkələrdə iqtisadi geriləmənin, əhalinin maddi gəlirlərinin azalmasının, sosial sahədə vəziyyətin pisləşməsinin, işsizlik səviyyəsinin yüksəlməsinin davam etməsi ilə yadda qaldı. Lakin böhran dövründə iqtisadi inkişaf tempini qoruyub saxlaya bilən, son illərdə ümumi daxili məhsulun əhəmiyyətli həcmdə artımını təmin edən, əhalisinin maddi gəlirlərinin artımına və beləliklə də ümumi rifah halının yüksəlməsinə nail olmuş ölkələrdən biri olan Azərbaycan Respublikası 2010-cu ildə də iqtisadi inkişaf tempinə görə dünyada qabaqcıl olkələrin siyahasına daxil oldu. Bu, ölkəmizdə iqtisadi sahədə həyata keçirilən siyasətin kifayət qədər praqmatik və reallıqlara əsaslandığını, ən xırda detallarına qədər uzaqgörənliklə düşünüldüyünü bir daha göstərir.

Belə ki, iqtisadi sferada ölkə rəhbərliyi tərəfindən həyata keçirilən son dərəcə dəqiqliklə düşünülmüş siyasətin nəticəsidir ki, digər dünya ölkələrində fəsadları hələ də davam edən qlobal maliyyə böhranı Azərbaycan iqtisadiyyatı üçün demək olar ki, təsirsiz ötüşmüşdür.

Qeyd edilənlər Azərbaycanın seçdiyi iqtisadi inkişaf yolunun kifayət qədər düzgün müəyyən olunmasını bir daha sübut edir və qarşıdakı dövr ərzində də ölkəmizin yeni uğurlar qazanacağını qətiyyətlə deməyə əsas verir.

Ölkə başçısı Möhtərəm Prezident Cənab İlham Əliyev bununla bağlı bildirmişdir: "Son altı il ərzində iqtisadiyyatımız demək olar ki, üç dəfə artıb. Bizim iqtisadiyyat son bir neçə ildə dünyada ən sürətlə artan iqtisadiyyatdır. Ölkəmizdə bir sıra əsas infrastruktur layihələri həyata keçirməyə nail olduq. İşsizliyin və yoxsulluğun azaldılması sahəsində bir çox nailiyyətləri əldə etdik. Azərbaycanda yaşayış şəraiti yaxşılaşır. Son altı ildə büdcə xərclərimiz 10 dəfədən çox artmışdır. Bu, sosial problemlərə və iqtisadiyyatın şaxələndirilməsinə daha çox vəsait sərf etməyə imkan verir".

Ölkə başçısı tərəfindən uğurla davam etdirilən sosial-iqtisadi strategiya respublikamızda digər bütün sahələrlə yanaşı təhsil sferasını da əhatə etmiş və 2010-cu ildə də təhsil prioritet sahə kimi dövlətin birbaşa nəzarəti və qayğısı altında olmuşdur.

2010-cu ildə dövlət büdcəsinin ümumi xərcləri 12.275.300,0 min manat, təhsil xərcləri 1.276.855,1 min manat (ümumi büdcə xərclərinin 10,4 %-i) məbləğində nəzərdə tutulmuşdur ki, bu da 2009-cu ildə faktiki icra olunmuş təhsil xərclərindən 128953.8 min manat və ya 11.2% çoxdur. Təhsil xərclərinin tərkibində 2010-cu ilə Təhsil Nazirliyinə 402.039,5 min manat vəsaitin ayrılması nəzərdə tutulmuşdur ki, bu da ümumilikdə təhsil xərclərinin 31,5 %-ni təşkil edir.

Təhsil Nazirliyinə ayrılması nəzərdə tutulmuş 402.039,5 min manat vəsaitin tərkibində:

- 258.527,0 min manat və ya 64,3 % təhsil işçilərinin əməkhaqqı, əməkhaqqına üstəliklər və əməyin ödənişi ilə bağlı digər xərclər;
- 4.290,7 min manat və ya 1,1 % cari və əsaslı təmir xərcləri;
- 45.865,6 min manat və ya 11,4 % təhsil müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsinə yönəldilən xərclər;
- 17.848,8 min manat və ya 4,5 % kommunal xərclər;
- 29.539.7 min manat və ya 7,3 % təqaüd xərcləri və digər sosial müavinətlər;
- 20.459, 5 min manat və ya 5,1 % ərzaq məhsullarının alınması xərcləri;
- 25.508,2 min manat və ya 6,3 % sair cari xərclər (dərmanların, sarğı ləvazimatlarının, dəftərxana və təsərrüfat mallarının alınması, mətbəə, mühafizə, ezamiyyə, yanacaq, nəqliyyat xidməti, bank xərcləri və sair xərclər ) təşkil edir.

2010-cu ilin dövlət büdcəsində Təhsil Nazirliyinin bilavasitə tabeliyində olan və mərkəzləşdirilmiş xərclərdən maliyyələşən təhsil müəssisə, idarə və təşkilatların saxlanılması

məqsədi ilə 402.039,5 min manat məbləğində nəzərdə tutulmuş vəsaitin təhsilin səviyyələri nöqteyi-nəzərindən struktur tərkibi aşağıdakı kimidir:

Məktəbəqədər və ibtidai təhsil üzrə 32.230,5 min manat, natamam və orta təhsil üzrə 144.553,3 min manat, internat və xüsusi məktəblər üzrə 33.897,8 min manat, ilk peşə-ixtisas təhsili müəssisələri üzrə 26.869,1 min manat, orta ixtisas təhsili müəssisələri üzrə 29.414,4 min manat, ali məktəblər üzrə 71.661,2 min manat, təhsil sahəsində tətbiqi tədqiqatlar və digər xidmətlər üzrə 63.413,2 min manat.

Təhsil sahəsində həyata keçirilən bir sıra dövlət proqramlarının və xüsusi əhəmiyyətli tədbirlərin icrası ilə bağlı Təhsil Nazirliyinin 2010-cu ilə proqnozlaşdırılmış büdcəsinin 10,5 %-i həcmində və yaxud 42.010,1 min manat məbləğində vəsait nəzərdə tutulmuşdur:

- 8.000,0 min manat Respublikanın ümumi təhsil məktəblərində oxuyan şagirdlərin pulsuz dərsliklərlə təmin olunması üçün;
- 3196,0 Azərbaycan Respublikasının ümumi təhsil məktəblərinin avadanlıqla təminatı Proqramı"na əsasən nəzərdə tutulan tədbirlərlə bağlı xərclər;
- 16.362,0 min manat Azərbaycan Respublikası Prezidentinin 10 iyun 2008-ci il tarixli 2856 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "2008-2012-ci illərdə Azərbaycan Respublikasında təhsil sisteminin informasiyalaşdırılması üzrə Dövlət Proqramı"nın icrası üçün;
- 187,0 min manat Azərbaycan Respublikası Nazirlər Kabinetinin 3 fevral 2005-ci il tarixli 20 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında xüsusi qayğıya ehtiyacı olan (sağlamlıq imkanları məhdud) uşaqların təhsilinin təşkili üzrə İnkişaf Proqramı (2005-2009-cu illər)"na əsasən nəzərdə tutulan tədbirlər üçün;
- 700,0 "Sos Uşaq Kəndləri – Azərbaycan" Assosiyasiyası üzrə tədbirlərin icrası üçün;
- 645,0 min manat Azərbaycan Respublikası Prezidentinin 29 mart 2006-cı il tarixli 1386 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında dövlət uşaq müəssisələrindən uşaqların ailələrə verilməsi (De-institusionalizasiya) və alternativ qayğı Dövlət Proqramı(2006-2015-ci illər)" üçün;
- 300,0 min manat yeni dərslik və dərs vəsaitlərinin hazırlanması üçün;
- 5.081,6 min manat "Azərbaycan Respublikasında məktəbəqədər təhsilin yeniləşdirilməsi Proqramı (2007-2010-cu illər)"nın icrası üçün;
- 941,0 min manat məktəb kitabxanalarının maddi-texniki bazasının möhkəmləndirilməsi və müasir informasiya texnologiyaları ilə təchizatına dair tədbirlər üçün;
- 1.219,5 min manat Azərbaycan Respublikası Prezidentinin 03 iyul 2007-ci il tarixli 2282 nömrəli Sərəncamı ilə təsdiq olunmuş "Texniki peşə təhsilinin İnkişaf Proqramı (2007-2012-ci illər)"nın icrası üçün;
- 176,5 min manat Respublika Prezidentinin müvafiq sərəncam və fərmanlarına əsasən gənc istedadlara xüsusi təqaüdlərin ödənilməsi üçün;
- 1.000,0 min manat ilin ən yaxşı ümumi təhsil məktəbi və ən yaxşı müəllim mükafatlarının ödənilməsi üçün ;
- 1.914,0 min manat ümumi təhsil məktəblərinə tədris laboratoriya (fizika, kimya, biologiya) avadanlıqlarının alınması üçün;
- 797, 5 min manat Azərbaycan Respublikası Prezidentinin 22 may 2009-cu il tarixli 295 nömrəli Sərəncamı ilə təsdiq olunmuş "2009-2013-cü illərdə Azərbaycan Respublikasının ali təhsil sistemində islahatlar üzrə Dövlət Proqramı" nın icrası üçün;
- 1.490,0 min manat "2009-2014-cü illərdə Azərbaycanda şahmatın inkişaf etdirilməsi Dövlət Proqramı"nın icrası üçün.

2011-cu ildə dövlət büdcəsinin xərcləri 2010-cu illə müqayisədə 472,7 milyon manat və ya 10,4 % çox olmaqla 12.748,0 milyon manat məbləğində proqnozlaşdırılır .

2011-cu ildə təhsil xərclərinin maliyyələşdirilməsi məqsədi ilə dövlət büdcəsində 1338,5 milyon manat və ya ümumi büdcə xərclərinin 10,5 %-i nəzərdə tutulmuşdur ki, bu da 2010-cu ilə nisbətən 61,6 milyon manat və ya 5 % çoxdur.

2011-cu ildə Təhsil Nazirliyinə 426.718,0 min manat vəsaitin ayrılması nəzərdə tutulmuşdur ki, bu da təhsil xərclərinin 33,5%-ni təşkil etməklə, 2010-cu ilə nisbətən 24.678,6 min manat və ya 6,1 % çoxdur.

Təhsil Nazirliyinə 2011-ci ildə ayrılması nəzərdə tutulmuş 426718,0 min manat vəsaitin tərkibində:

- 271.105,4 min manat və ya 63,5 % təhsil işçilərinin əməkhaqqı, əməkhaqqına üstəliklər və əməyin ödənişi ilə bağlı digər xərclər ;
- 4.905,0 min manat və ya 1,2 % cari və əsaslı təmir xərclər;
- 55.971,5 min manat və ya 13,1 % təhsil müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsinə yönəldilən xərclər;
- 13.851,3 min manat və ya 3,3 % kommunal xərclər;
- 20.546,7 min manat və ya 4,8 % təqaüd xərcləri və digər sosial müavinətlər;
- 21.403, 5 min manat və ya 5 % ərzaq məhsullarının alınması xərcləri;
- 38.934,6 min manat və ya 9,1 % sair cari xərclər (dərmanların, sarğı ləvazimatlarının, dəftərxana və təsərrüfat mallarının alınması, mətbəə, mühafizə, ezamiyyə, yanacaq, nəqliyyat xidməti, bank xərcləri və sair xərclər ) təşkil edir.

Bundan əlavə 2010-cu ilin sentyabr ayından əməkhaqlarının və təqaüdlərin artırılması ilə əlaqədar Respublika Maliyyə Nazirliyi tərəfindən Təhsil Nazirliyinə 8956.3 min manat, o cümlədən 7433.5 min manat əməkhaqqı xərclərinə, 1522.8 min manat isə təqaüd xərclərinə əlavə vəsait ayrılmışdır.

**II. Proqnozlaşdırma və maliyyələşdirmə.**

Dövlət büdcəsinin Təhsil Nazirliyinə aid hissəsinin icrası məqsədi ilə hesabat dövrü ərzində təhsil müəssisələrinin vaxtlı-vaxtında maliyyələşdirilməsi təmin olunmuşdur. Bu məqsədlə hər ay kredit açılmasına dair sifarişlər, məxaric cədvəlləri və xəzinəarası köçürmə sərəncamları hazırlanmış, Nazirliyin rəhbərliyi tərəfindən təsdiq edilmiş və Maliyyə Nazirliyinə təqdim olunmuşdur.

Nazirliyin müvafiq əmr və sərəncamları ilə rəsmiləşdirilməklə mərkəzləşdirilmiş tədbirlərin maliyyələşdirilməsi təmin olunmuşdur.

Nazirliyin mərkəzləşdirmiş xərclərinin ayrı-ayrı bölmə və paraqrafları üzrə 2011-2014-cü illər üçün icmal büdcə layihəsi və 2011-2014-cü illərdə proqnozlaşdırılan büdcədənkənar vəsaitlər üzrə icmal gəlir və xərclər smetasının layihəsi hazırlanmış və Maliyyə Nazirliyinə təqdim olunmuşdur.

Dövlət büdcəsinin mərkəzləşdirilmiş xərclərindən maliyyələşən ayrı-ayrı müəssisə, idarə və təşkilatları üzrə 2010-cu ilin yanvar ayında icmal və fərdi xərclər smetaları, daha sonra il ərzində mütəmadi olaraq dürüstləşdirilmiş icmal və fərdi xərclər smetaları hazırlanmış, rəhbərlik tərəfindən təsdiq olunmuş, Maliyyə Nazirliyinə təqdim olunmuş və təhsil müəssisələrinə işlərində rəhbərlik və icra üçün çatdırılmışdır.

Bundan başqa Nazirliyin məktəbdənkənar tədbirlər üzrə mərkəzləşdirilmiş vəsaitləri hesabına Respublika daxilində müxtəlif olimpiadaların, konfransların, seminarların, baxış-müsabiqələrin və digər tədbirlərin keçirilməsi ilə bağlı, Respublika nümayəndə heyətlərinin beynəlxalq olimpiadalarda və yarışlarda iştirakı ilə bağlı, Türkiyə, Rusiya Federasiyası və Ukraynadan başqa digər xarici ölkələrdə Azərbaycan Respublikasından dövlət xətti ilə təhsil alan tələbələrin təhsil yerinə getmələri və Vətənə dönmələri ilə əlaqədar yol xərclərinin ödənilməsi ilə bağlı, Türkiyədə, Rusiya Federasiyasında, Ukraynada və digər ölkələrdə Azərbaycan Respublikasından dövlət xətti ilə təhsil alan tələbələrin təhsil yerinə getmələri və vətənə dönmələri ilə əlaqədar yol xərclərinin ödənilməsi ilə bağlı, digər mərkəzləşdirilmiş məktəbdənkənar tədbirlər üzrə xərclərlə bağlı, Azərbaycan Respublikası Prezidentinin müvafiq Fərman və Sərəncamlarına əsasən 64 nəfər istedadlı şagirdə xüsusi təqaüdün ödənilməsi ilə

bağlı, Rusiya Federasiyasının, Ukraynanın, Türkiyənin və Misir Ərəb Respublikasının ali məktəblərində Azərbaycan Respublikasından dövlət xətti ilə təhsil alan tələbələrə təqaüdün ödənilməsi ilə bağlı, Azərbaycan Respublikası Prezidentinin müvafiq Fərmanlarına əsasən qəbul imtahanlarında yüksək bal toplamış Qafqaz Universitetinə və Xəzər Universitetinə daxil olmuş tələbələrə Prezident təqaüdünün ödənilməsi ilə bağlı, həmçinin 2010/2011-ci tədris ilində kadr hazırlığı üzrə dövlət sifarişinin yerinə yetirilməsində iştirak etmiş ali məktəblərə cari tədris ilinin sentyabr-dekabr ayları üçün təsdiq olunmuş bölgüyə əsasən köçürmələrin edilməsi ilə bağlı sərəncam layihələri hazırlanmışdır. Bu məqsədlə Dövlət Xəzinədarlıq Agentliyi (DXA) tərəfindən kredit açılması üçün müvafiq sifarişlər, məxaric cədvəlləri, xəzinəarası köçürmə sərəncamları hazırlanmış Maliyyə Nazirliyinə təqdim olunmuşdur.

Təhsil müəssisələrinin əsaslı tikintisi və yenidən qurulması məqsədi ilə 2010-cu ilin büdcəsində 80.405,6 min manat, o cümlədən 68.405,6 min manat İnvestisiya Proqramı çərçivəsində və 12000,0 min manat Azərbaycan Respublikası Prezidentinin Ehtiyat fondunun vəsaiti hesabına ayrılmışdır.

Bununla yanaşı Nazirliyin mərkəzləşdirilmiş vəsaitlərinin 2010-cu ilə xərclər smetası hazırlanmış və müvafiq hesablamalar da əlavə olunaraq təsdiqə təqdim olunmuşdur. Eyni zamanda Təhsil Nazirliyinə «Təhsil xərcləri» bölməsi üzrə dövlət büdcəsindən 225411 «İnventarın alınması» və 225200 «Yumşaq inventar, yataq ləvazimatı və xüsusi geyimlərin alınması» xərc maddələri üzrə 2010-cu ilə ayrılmış vəsait hesabına təhsil müəssisələrinin Maddi-Texniki Təchizat İdarəsi tərəfindən mərkəzləşdirilmiş qaydada yumşaq inventar və paltarlarla, bərk inventar və avadanlıqlarla təminatının bölgüsü layihəsi hazırlanmış və təsdiq olunmuşdur

Təhsil Nazirliyi sistemi üzrə 2010-cu ildə büdcənin gözlənilən icrası, 2011-cu ilə proqnozlaşdırılan büdcə göstəriciləri barədə müxtəlif arayışların hazırlanması təmin olunmuşdur.

İl ərzində mütəmadi olaraq təhsilin iqtisadiyyatına dair (adambaşına düşən xərc, orta aylıq əməkhaqqı və sair) hesablamalar aparılmış və müxtəlif məlumatlar hazırlanmışdır.

Təhsil sistemi üzrə büdcənin formalaşdırılması və icrası ilə bağlı daxil olan sənədlər təhlil olunmuş, lazımi hallarda irad və təkliflər hazırlanmışdır.

2010-cu ildə tədris müəssisələrinin, idarələrin və təşkilatların büdcədənkənar vəsaitləri üzrə gəlir və xərclər smetalarının layihələrinə baxılmış, Maliyyə Nazirliyi tərəfindən təqdim olunmuş 2010-cu ilin dövlət büdcəsinin ayrı-ayrı bölmələrinin layihəsində Azərbaycan Respublikası Təhsil Nazirliyi üzrə büdcədənkənar vəsaitlərin göstəricilərini əks etdirən protokola müvafiq olaraq «Təhsil xərcləri» bölməsi, «Elm xərcləri» və «Mədəniyyət və incəsənət sahəsində fəaliyyət» köməkçi bölmələrinin büdcədənkənar vəsaitlər üzrə icmal gəlir və xərclər smetası Maliyyə Nazirliyinə təqdim edilmişdir. Maliyyə Nazirliyi tərəfindən büdcədənkənar vəsaitlərin təsdiq edilmiş icmal gəlir və xərclər smetası əsasında ayrı-ayrı təhsil müəssisələri və təşkilatları üçün fərdi smetaların hazırlanaraq təsdiq edilib yerlərə çatdırılması təmin edilmişdir.

Təhsil Nazirliyinin 2010-cu ilə «Təhsil» bölməsi üzrə büdcədənkənar vəsaitlər üzrə gəlir və xərclər smetası 23.000 min manat, «Elm» köməkçi bölməsi üzrə büdcədənkənar vəsaitlər üzrə gəlir və xərclər smetası 200,0 min manat və «Mədəniyyət və incəsənət sahəsində fəaliyyət» köməkçi bölməsi üzrə isə 45,0 min manat təsdiq edilmişdir.

2010-ci ildə ödənişli əsaslarla təhsil alan tələbələrin sayı 45144 nəfər olmuşdur. Büdcədənkənar vəsaitlər üzrə bir tələbəyə düşən xərc 509 manat, o cümlədən ali məktəblərdə 672,2 manat, ixtisasartırma institutlarında 661,8 manat, kolleclərdə isə 218 manat təşkil etmişdir.

«Təhsil» bölməsi üzrə 2010-cu ilə təsdiq edilmiş büdcədənkənar vəsaitlərin 46,4 %-i əməyin ödənişinə, 3,8 %-i kommunal və kommunikasiya xidmətlərinin ödənilməsinə, 13%-i inventar və avadanlığın alınmasına, 16 %-i cari və əsaslı təmirə, 4 %-i dəftərxana və təsərrüfat xərclərinə, 0,9 %-i nəqliyyat vasitələrinin alınmasına, 15,9 %-i isə sair cari xərclərə yönəldilmişdir.

2009-2014-cü illərdə müvafiq olaraq faktiki və proqnozlaşdırılan xüsusi vəsaitlər haqqında məlumat (ayrı-ayrı bölmələr və paraqraflar üzrə) büdcə təsnifatına uyğun hazırlanmış və Maliyyə Nazirliyinə təqdim olunmuşdur.

2010-cu ildə Bakının Xətai rayonu, Binəqədi rayonu, Gəncə şəhəri və Xaçmaz rayonunun ərazisində yerləşən ali məktəblərin, kollreclərin, peşə liseylərinin və peşə məktəblərinin büdcədənkənar vəsaitləri üzrə aylıq sifarişləri hazırlanaraq Maliyyə Nazirliyinə təqdim edilmişdir.

«Dövlət rüsumu haqqında» Azərbaycan Respublikasının Qanununa dəyişikliklər və əlavələr edilməsi barədə» Azərbaycan Respublikasının 2007-ci il 9 noyabr tarixli 489–III QD nömrəli qanununun tətbiq edilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 19 dekabr tarixli 683 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Təhsil Nazirliyinə tabe olan müəssisə və təşkilatlarda hüquqi və fiziki şəxslərə göstərilən ödənişli xidmətlər ilə əlaqədar olaraq Maliyyə Nazirliyi ilə birgə məlumatlar işlənilmişdir.

Nazirliyin mərkəzi aparatının normal maliyyə-təsərrüfat fəaliyyətinin təmin olunması məqsədi ilə il ərzində xərclər smetasında dəyişikliklərlə bağlı təkliflər hazırlanmış, Maliyyə Nazirliyinə təqdim olunmuş və əldə olunmuş razılığa əsasən xərclər smetasında dəyişikliklər aparılmışdır.

Həmçinin mərkəzi aparatın 2010-cu ilə strukturu, ştat cədvəli və xərclər smetası, ştat cədvəlində dəyişikliklərlə bağlı sənədlər vaxtlı-vaxtında hazırlanmış və icra üçün Nazirliyin aidiyyəti struktur bölmələrinə çatdırılmışdır.

Tədris müəssisə, idarə və təşkilatların ştat cədvəlləri, pedaqoji işçilərin tarifləşmə siyahıları yoxlanılmış, yol verilmiş nöqsanların qüvvədə olan təlimati-normativ sənədlərə uyğun aradan qaldırılması məqsədi ilə təkliflər irəli sürülmüş və digər müvafiq tədbirlər görülmüşdür.

Hesabat dövründə mütəmadi aparılan işlərdən biri də Nazirliyin tabeliyində olan tədris müəssisələrinin, idarələrin, təşkilatların 2009-cı il, 2010-cu ilin I yarımilliyi və 9 ayı üçün mühasibat hesabatlarının qəbulu və təhlili olmuşdur. Təhlilin nəticəsində aşkar olunmuş nöqsanların aradan qaldırılması məqsədi ilə təhsil müəssisələri ilə müvafiq izahat işləri aparılmış, təkliflər hazırlanmışdır.

Azərbaycan Respublikası Prezidentinin 05.09.2009-cu il tarixli, 156 №-li Fərmanı ilə təsdiq edilmiş «Təhsil haqqında» Azərbaycan Respublikası Qanununun tətbiqi ilə bağlı hazırlanmış bir sıra normativ sənədlərə aidiyyəti üzrə şöbədə baxılmış, rəy və təkliflər verilmişdir.

Nazirliyin rəsmi internet saytında yerləşdirilməsi məqsədi ilə təhsilin iqtisadiyyatına dair bir sıra göstəricilər barədə məlumatlar hazırlanmışdır.

İnternat tipli təhsil müəssisələrində təhsil alan, dövlət təminatında olan şagirdlərin yeməklə təmin olunması məqsədi ilə keçirilən satınalma prosedurlarının qanunvericiliyin tələblərinə uyğun aparılması məqsədi ilə müxtəlif protokollar, Əsas Şərtlər Toplusu, müqavilələr tərtib olunmuş, hesablamalar aparılmışdır.

Cari ilin 29 sentyabr 2010-cu il tarixində Təhsil Nazirliyində Bakı və Sumqayıt şəhərlərində yerləşən və birbaşa Nazirlikdən maliyyələşən təhsil müəssisələrinin baş mühasiblərinin iştirakı ilə seminar-müşavirə keçirilmiş və seminar-müşavirədə əsasən aşağıdakı məsələlər müzakirə olunmuşdur:

- Birbaşa Təhsil Nazirliyindən maliyyələşdirilən xərclərin 2009-cu il üzrə icrası, 2010-cu ilin 9 ayı üzrə icra vəziyyəti və 2011-ci ilin proqnoz göstəriciləri, mövcud problemlər və qarşıda duran vəzifələr.
- Beynəlxalq və Milli Mühasibat Uçotu Standartlarının tətbiqi, problemlər və qarşıda duran vəzifələr.
- Ali təhsil müəssisələrində yeni maliyyələşdirmə mexanizminin tətbiqi işlərinin gedişatının vəziyyəti və bu sahədə görüləcək işlər.
- Əməkhaqlarının artımı ilə bağlı qarşıda duran vəzifələr, ştat və tarifləşmə cədvəllərinin yenidən hazırlanması ilə bağlı məsələlər.
- Rüblük və illik mühasibat hesabatlarının təqdim edilməsi barədə bir sıra məsələlər, təlimatlar, izahatlar və tövsiyyələr.
- "İlk peşə-ixtisas təhsili müəssisələrinin büdcə təminatı normativlərinin hesablanması metodikası və tətbiq olunma Qaydaları"nın təsdiq edilməsi haqqında AR NK-nin 17 avqust 2010-cu il tarixli, 150 nömrəli Qərarının icrası ilə bağlı qarşıda duran vəzifələr.

**III. Təhsil müəssisələrində aparılmış təftiş-nəzarət işlərinin nəticələri.**

Hesabat ilində Respublika Hesablama Palatası və Maliyyə Naziriliyi tərəfindən Təhsil Nazirliyinin tabeliyində olan təşkilatlarda müvafiq dövrələri əhatə etməklə aparılmış təftiş və auditlərin nəticələri barədə daxil olmuş məktublara əsasən müvafiq tədbirlər görülmüşdür. Belə ki, cari ildə Təhsil Nazirliyinə Azərbaycan Respublikası Maliyyə Nazirliyi tərəfindən Sumqayıt Dövlət Universitetində, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Univeristetində, Azərbaycan Müəllimlər İnstitutunun Qazax filialında, Naftalan Şəhər Təhsil Şöbəsində, Xaçmaz Rayon Təhsil Şöbəsində, Şamaxı Rayon Təhsil Şöbəsində, Kəlbəcər Rayon Təhsil Şöbəsində, Xızı Rayon Təhsil Şöbəsində, Şabran Rayon Təhsil Şöbəsində, Şirvan Şəhər Təhsil Şöbəsində, Ağdaş Rayon Təhsil Şöbəsində, Sabirabad Rayon Təhsil Şöbəsində, Füzuli Rayon Təhsil Şöbəsində, Yevlax Şəhər Təhsil Şöbəsində, Ucar Rayon Təhsil Şöbəsində, Daşkəsən Rayon Təhsil Şöbəsində, Şəki 1 saylı Peşə Məktəbində, Şəki 2 saylı Peşə Məktəbində, Balakən 2 saylı Peşə Məktəbində, Beyləqan Peşə Məktəbində, İsmayıllı Peşə Məktəbində, Neftçala Peşə Məktəbində, Şamaxı Peşə Liseyində, Dəvəçi Peşə Məktəbində, Goranboy Peşə Məktəbində, Naftalan Peşə Məktəbində, Balakən Peşə Məktəbində, Yevlax Peşə Məktəbində, Daşkəsən Peşə Məktəbində, Salyan Peşə Liseyində, Abşeron-Ceyranbatan Peşə Liseyində, Sumqayıt 2 saylı Peşə Liseyində, Sumqayıt 3 saylı Peşə Liseyində, Qazax Peşə Liseyində, Tovuz Peşə Liseyində, Göyçay Peşə Liseyində, Xaçmaz Peşə Liseyində, Sabirabad Peşə Liseyində, Göyçay Dövlət İdarəetmə və Texnologiya Kollecində, Şamaxı Dövlət Sənaye İqtisad Kollecində, Şuşa Humanitar Kollecində, Bakı İdarəetmə və Texnologiya Kollecində, Bakı Humanitar Kollecində, Azərbaycan Milli Konservatoriyası nəzdində Musiqi Kollecində, Bakı-Qida Sənayesi Kollecində, Şuşa Musiqi Kollecində, Sumqayıt Musiqi Kollecində, Bakı Dövlət İqtisadiyyat və Humanitar Kollecində, Şəki Dövlət Texniki kollecində, Şəki Dövlət Pedaqoji Kollecində, Qazax Dövlət Sosial-İqtisadi kollecində, Şamaxı Humanitar Kolleci, Şirvan Dövlət İqtisadiyyat və Humanitar Kollecində, Ağdaş Dövlət Humanitar Kollecində, Ağdaş Şəhər M.Şeyxzadə adına İnternat tipli texniki, humanitar və təbiət fənləri təmayüllü gimnaziya, Şəki Şəhər Qarışıq Tipli Uşaq Evində, Humanitar və Təbiət Fənləri Təmayüllü Gimnaziyada, Yel Xəstəlikli Uşaqlar üçün Sanatoriya tipli 10 saylı İnternat Məktəbində, 11 saylı Xüsusi İnternat Məktəbində, "Təhsil" Respublika İdman Mərkəzinin Şirvan Uşaq-Gənclər İdman məktəbində, Yevlax Şəhər Təhsil Şöbəsinin Xaldan Kənd Kompleks orta məktəbində dövlət büdcəsindən ayrılan vəsaitlərin təyinatı üzrə səmərəli xərclənməsi üzərində nəzarəti təmin etmək məqsədi büdcə və büdcədənkənar vəsaitlər üzrə xərclər smetalarının təftişinin nəticələri barədə daxil olmuş məktub və məlumatlar araşdırılmışdır.

Təftiş aparılmış müəssisə, idarə və təşkilatlarda aşkar olunmuş nöqsan və çatışmazlıqların tam aradan qaldırılması və gələcəkdə onların təkrarına yol verilməməsi məqsədi ilə müvafiq əmrlər hazırlanmış və bu əmrlərə əsasən təftiş və yoxlamalar nəticəsində aşkar olunmuş nöqsan və pozuntularla yol verilməsində təqsiri və məsuliyyəti olan bütün şəxslər barəsində Əmək Məcəlləsinin müvafiq bəndlərinə uyğun olaraq inztizam tənbehi tətbiq edilmiş,onlara ciddi tapşırıqlar verilmiş və bir sıra rəhbər işçilər isə işdən azad olunmuşdur.

Bundan əlavə cari ildə Respublika Maliyyə Nazirliyi tərəfindən Azərbaycan Respublikası Müəllimlər İnstitutunun Ağcabədi filialında, Azərbaycan Respublikası Müəllimlər İnstitutunun Salyan filialında, Azərbaycan Müəllimlər İnstitutunun Şamaxı filialında, Xızı Rayon Peşə Məktəbində, Zaqatala Rayon Peşə Liseyində, Qax Rayon Peşə Liseyində, Zərdab Rayon Peşə Liseyində, Cəlilabad Peşə Liseyində, Qubadlı Rayon 126 saylı Texniki Peşə Məktəbində, Kəlbəcər Rayon 189 saylı Texniki Peşə Məktəbində, Cəbrayıl Rayon 131 saylı Texniki Peşə Məktəbində, Füzuli Rayon 116 saylı Texniki Peşə Məktəbində, Astara Pedaqoji Kollecində, Sumqayıt Dövlət Texniki Kollecində, Xarici Dillər Təmayüllü Gimnaziyada, Quba Xüsusi İnternat orta ümumi təhsil Məktəbində, Lənkəran Şəhəri əqli və fiziki cəhətdən qüsurlu uşaqlar üçün Xüsusi İnternat Məktəbində, Gözdən əlil uşaqlar üçün Respublika İnternat orta məktəbində, 7 saylı Xüsusi İnternat Məktəbində, Azərbaycan Milli Konservatoriyası tərkibində Respublika İncəsənət Gimnaziyasında, V.İbrahimov adına Lerik Şəhər İnternat orta Məktəbində, Quba Rayonu Xınalıq Kənd İnternat Orta Məktəbində, Cəbrayıl Şəhər İnternat orta Məktəbində,

həmçinin Azərbaycan Respublikası Hesablama Palatası tərəfindən Zaqatala və Şəki rayon təhsil şöbələrində müvafiq dövrləri əhatə etməklə dövlət büdcəsindən ayrılan vəsaitlərin təyinatı üzrə səmərəli xərclənməsi üzərində nəzarəti təmin etmək məqsədi büdcə və büdcədənkənar vəsaitlər üzrə xərclər smetalarının təftişinin nəticələri barədə daxil olmuş məktub və məlumatlar hal-hazırda şöbədə araşdırılır və müvafiq əmr layihələri hazırlanır.

## IV. Uçot və hesabat.

Şöbədə Nazirliyin mərkəzi aparatının fəaliyyəti ilə bağlı ayrılmış büdcə vəsaitləri üzrə əməliyyatların hərəkətinin uçotu və hesabatının təmin edilməsi, Nazirliyin Mərkəzləşdirilmiş vəsaitlər hesabı üzrə (ümumi təhsil məktəblərinin şagirdləri üçün dərsliklərin nəşri və çapı, ilk peşə-ixtisas təhsili haqqında diplom və attestatların, orta təhsil haqqında attestat və şəhadətnamələrin hazırlanması, məktəb sənədlərinin hazırlanması, digər metodiki iş, texniki təbliğat və təhsil üzrə mərkəzləşdirilmiş tədbirlərlə bağlı konkret məqsədlər üçün açılmış maliyyələşmələrə əsasən xərclərin ödənilməsi, dövlət proqramları ilə müəyyən olunmuş mərkəzləşdirilmiş tədbirlərin və layihələrin icrası ilə bağlı xərclərin ödənilməsi, təhsil müəssisələrinin mərkəzləşdirilmiş qaydada yumşaq inventar və geyimlərlə təmin edilməsi, təhsil müəssisələrinin mərkəzləşdirilmiş qaydada bərk inventar və avadanlıqla təmin olunması, ümumi təhsil məktəblərin informasiya və kommunikasiya texnologiyaları ilə təminatı, mərkəzləşmiş vəsait hesabına məktəb tikintisi ilə bağlı verilmiş konkret sərəncamlar əsasında köçürmələrin aparılması və bu əməliyyatların mühasibat uçotunun təmin edilməsi, məktəb tikintisi ilə bağlı debitor və kreditor borclarının uçotunun təmin edilməsi və bu sahə üzrə rüblük və illik hesabatın hazırlanması, Respublika daxilində müxtəlif olimpiadaların, konfransların, seminarların, baxış-müsabiqələrinin, qaliblərin mükafatlandırılması, diplomların, döş nişanlarının hazırlanması Rusiyada, Türkiyədə, Ukraynada, Çində, Amerikada, İngiltərədə və s. digər xarici ölkələrdə dövlət xətti ilə və dövlət proqramı əsasında təhsil alan tələbələrə çəkilən xərclərin hərəkətinin uçotu və hesabatı) uçot və hesabat işlərinin aparılması, Nazirliyin mal-material qiymətlilərinin hərəkətinin uçotu və hesabatının aparılması, Nazirliyin kassa və bank əməliyyatlarının hərəkətinin uçotu və hesabatı, xəzinədarlıqla və bankla əlaqəli işinin aparılması, Təhsil nazirliyinin tabeliyində olan müəssisələr üzrə həm köhnə qaydada, həm də Milli Mühasibat Uçot Standartları əsasında rüblük və illik mühasibat hesabatlarının qəbulu, Nazirlik üzrə yekun mühasibat hesabatın tərtibi və direktiv orqanlara təqdim edilməsi və qeyd edilən bütün məsələlər üzrə avtomatlaşdırma işlərinin həyata keçirilməsi və onlara nəzarətin təmin edilməsi istiqamətində işlər aparılmışdır.

### 4.1. Nazirliyin Mərkəzi aparatı üzrə uçot və hesabat.

Nazirliyin mərkəzi aparatı üzrə aparılan mühasibat uçot və hesabat işləri əsasən aşağıdakı iki istiqamətdə aparılmışdır:

**1)** Nazirliyin mərkəzi aparatı üçün təsdiq edilmiş ştat cədvəlinə və il ərzində edilmiş müvafiq dəyişikliklərə əsasən ştatda olan və ştatdankənar işçilərə əməkhaqlarının hər ay hesablanıb, plastik kartlar üzrə əməkdaşların şəxsi hesablarına köçürülməsi və bu əməliyyatların uçot və hesabatının aparılması, eyni zamanda Nazirliyin müvafiq əmrlərinə əsasən işçilərə müvafiq əmək dövrlərinə uyğun məzuniyyət haqqının, məzuniyyətlə bağlı müavinətin, mükafatın, maddi yardımın, fəxri adlara və siyasi təmsilçiliyə görə haqların, ölkədaxili və xarici ezamiyyələrin, Həmkarlar İttifaqı Komitəsinin təqdim etdiyi protokollara əsasən müvəqqəti iş qabiliyyətini itirən işçilərə müvafiq qaydada müavinətin, habelə «Dövlət Qulluğu haqqında» Azərbaycan Respublikası Qanununun müvafiq maddələrinə əsasən işdən pensiyaya çıxan işçilərə lazımi arayışların hazırlanması, onlara son haqq-hesabın hesablanması və təyin olunmuş pensiya məbləğlərinin 6 misli məbləğində birdəfəlik haqqın hesablanması və ödənilməsi əməliyyatlarının uçotunun aparılması və hesabatının tərtib edilməsi.

**2)** Nazirliyin maliyyə-təsərrüfat fəaliyyətinin təmin edilməsi ilə bağlı aparılan kassa-bank-xəzinədarlıq əməliyyatlarının uçotu və bu əməliyyatlarla bağlı rüblük və illik hesabatların tərtib edilməsi və mövcud qaydada direktiv orqanlara təqdim edilməsi.

İkinci sahə üzrə işlər əsasən Nazirliyin Ümumi şöbəsinin xətti ilə Nazirliyin mərkəzi aparatında aparılan təsərrüfat işləri, təminat və kommunal xidmətlərlə bağlıdır. Belə ki, Nazirliyin mərkəzi aparatına hesabat ilində təsdiq olunan xərclər smetasının müvafiq xərc

maddələrinə uyğun ayrılmış vəsaitə görə Nazirlik malların (iş və xidmətlərin) alınması üçün keçirilmiş tenderlərin, kotirovka sorğularının qalibləri olan müəssisə və təşkilatlarla bağlanmış müqavilələrə, eyni zamanda Nazirliyin inzibati binasının əsaslı və cari təmiri, mal-materiallarla və avadanlıqlarla təminatı ilə bağlı müqavilələrin, kommunal xidmət sahələri ilə bağlanmış müqavilələrə əsasən mühasibatlığa rəhbərliyin müvafiq dərkənarı ilə daxil olan konkret hesab-fakturalara, təqdimatlara, əmr və sərəncamlara uyğun işlərin təşkil edilməsi, sənədlərin araşdırılması, icra üçün ödəmə sənədlərinin hazırlanması və xəzinədarlığa təqdim edilməsi əməliyyatları aparılmışdır.

2010-cu il ərzində mərkəzi aparat üzrə tədbirlərin həyata keçirilməsi üçün dürüstləşdirilmiş xərclər smetasında 2335587.0 manat vəsaitin ayrılması planlaşdırılmışdır. Nəzərdə tutulan bu vəsaitə qarşı aparılmış maliyyələşmə məbləği 2121661.0 manat təşkil etmiş və ya icra 90.84% olmuşdur. Faktiki kassa icrası isə 1915794.20 manat olmuşdur ki, bu da açılmış maliyyələşməyə görə 82.03% təşkil etmişdir.

Açılan vəsait aşağıdakı iş və xidmətlərin yerinə yetirilməsinə yönəldilmişdir:

Əməkhaqqı və ona üstəlik xərclərin ödənilməsi üçün 1558960.0 manat (bunun 1429434.17 manatı kassa xərci edilmişdir);

İdarənin saxlanılması xərclərinin ödənilməsi üçün 175400.0 manat (bunun 163650.01 manatı kassa xərci edilmişdir);

Ezamiyyə xərclərinin ödənilməsi üçün 74260.0 manat (bunun 53250.45 manatı kassa xərci edilmişdir);

Nəqliyyat xidmətləri haqqlarının ödənilməsi üçün 8933.0 manat (bunun 5640.99 manatı kassa xərci edilmişdir);

Kommunal və kommunikasiya xidmətlərinin ödənilməsi üçün 102629.0 manat (bunun 78673.45 manatı kassa xərci edilmişdir);

İnventar və avadanlığın alınması üçün 70660.0 manat (bunun 65380.29 manatı kassa xərci edilmişdir);

Əsas vəsaitlərin alınması üçün 67000.0 manat (bunun 66995.14 manatı kassa xərci edimişdir);

Sair müxtəlif xərclərin ödənilməsi üçün 8070.0 manat (bunun 3415.58 manatı kassa xərci edilmişdir).

Qeyd olunan əməliyyatların icra sənədlərinə əsasən mühasibat uçotu təmin edilmiş və müvafiq dövrlər üzrə yekun hesabatların tərtib edilib, aidiyyəti orqanlara təqdim edilməsi həyata keçirilmişdir. Belə ki, Nazirliyin mərkəzi aparat işçilərinin aylıq əməkhaqqları hər bir ay üçün verilmiş tabel əsasında, mükafatları, məzuniyyətləri, məzuniyyətə görə verilən müavinətlər Nazirliyin müvafiq əmrləri əsasında, işçilərin pensiya və müavinətləri müvafiq sənədlər əsasında hesablanılmışdır. Bu ödənişlərin və işçilərin ezamiyyələrinin, xidməti avtomaşınların saxlanması ilə bağlı sürücülərə verilən vəsaitlərin plastik kartlar vasitəsilə ödənilməsinin həyata keçirilməsi üçün həmin vəsaitlərin əməkdaşların şəxsi hesablarına köçürülməsi təmin edilmişdir.

Nazirliyin təmir, təsərrüfat fəaliyyətinin təmin edilməsi, maddi-texniki bazasının möhkəmləndirilməsi ilə bağlı tədbirlər həyata keçirilmiş, kommunal xidməti sahələrinin fəaliyyəti üzrə xərclər və bu xərclərin uçotu təmin edilmişdir.

Mərkəzi aparat üzrə bank və kassa uçotu təmin edilmiş, aparılmış əməliyyatlar üzrə rüblük və illik hesabatlar tərtib edilərək direktiv orqanlara təqdim edilmişdir.

Nazirliyin mərkəzi aparatının büdcədənkənar vəsaitləri üzrə gəlirlərinin hər birinin ayrıca hərəkətinin uçotu təmin edilmişdir. Belə ki,diplomların və digər ciddi uçot və hesabat sənədlərinin, blankların tədris müəssisələrinə ödənişli əsaslarla verilməsindən əldə olunan vəsaitin hər bir konkret mədaxil üzrə hərəkətinin, tenderdə iştirak etmək üçün tender iştirakçılarının Nazirliyə vəsait köçürülməsindən əldə edilən məbləğlərin və bu vəsaitin Nazirliyin büdcədənkənar xərclər smetasına əsasən xərclənilməsinin, mühasibat, hesabat, uçot blanklarının ödənişli əsaslarla tabe müəssisələrə verilməsindən əldə olunan vəsaitin hərəkətinin uçotu aparılmış və tələb olunan dövrlərdə müvafiq hesabat hazırlanaraq rəhbərliyə və digər direktiv orqanlara təqdim edilmişdir.

**4.2. Nazirliyin mərkəzi aparatında mal-material qiymətlilərinin hərəkəti və anbar uçotu.**

2010-cu ildə Nazirliyin Mərkəzi aparatının balans uçotunda olan əsas vəsaitlərin və digər mal-material qiymətlilərinin hərəkətinin (mal-materialın dövriyyəsi, balansdan balansa əvəzsiz verilməsi, köhnəlmə və qalıqların hesablanması) uçotu təmin edilmişdir.

İllik, rüblük hesabatların tərtibində əsas vəsaitlərin hərəkəti barədə və mal-material qiymətlilərinin hərəkəti barədə hesabat formaları hazırlanılmış (illik hesabatlarda), müvafiq material qalıqları barədə məlumatlar Xərclər smetasının icrası balansında əks etdirilmişdir.

Hesabat ilinin 11 ayı ərzində əsas vəsaitlər 778069.99 manat artmışdır. Belə ki, 11 ayda 779612.99 manatlıq vəsait alınmış, 1543.0 manatlıq vəsait silinmişdir. Alınan vəsaitin 39919.67 manatlıq hissəsi budcə hesabına mebel avadanlıqlarının və kompüterlərin alınmasından, 739693.32 manatlıq hissəsi Təhsil Nazirliyinin Mərkəzləşdirilmiş Tədbirləri hesabına Nazirliyin inzibati binasının əsaslı təmiri əsasında binanın ümümi dəyərinin artırılması, habelə Mərkəzləşdirilmiş Tədbirləri hesabına elektrik generatorlarının, kondisionerlərin alınmasından ibarət olmuşdur.

**4.3. Nazirliyin Mərkəzləşdirilmiş tədbirlər üzrə əməliyyatların mühasibat uçotu və hesabat.**

Azəbaycan Respublikası Təhsil Nazirliyinin rəhbərliyi tərəfindən 2010-cu ilə təsdiq olunmuş bölmə 4 köməkçi bölmə 7 üzrə mərkəzləşmiş vəsaitlərin xərclər smetası əsasında edilmiş maliyyə əməliyyatlarının hərəkətinin uçotunun aparılması,Təhsil Nazirliyinin rəhbərliyinin konkret sərəncamlarına əsasən ümumi təhsil məktəblərinin şagirdləri üçün dərsliklərin nəşri və çapı, texniki-peşə təhsili haqqında diplom və attestatların, orta təhsil haqqında attestat və şəhadətnamələrin hazırlanması, məktəb sənədlərinin hazırlanması, digər metodiki iş, texniki təbliğat və təhsil üzrə mərkəzləşdirilmiş tədbirlərlə bağlı konkret məqsədlər üçün açılmış maliyyələşmələrə əsasən çap xərclərin ödənilməsi, təhsil müəssisələrinin mərkəzləşdirilmiş qaydada yumşaq inventar və geyimlərlə təmin edilməsi, təhsil müəssisələrinin mərkəzləşdirilmiş qaydada bərk inventar və avadanlıqla təmin olunması və uçotunun aparılması, mərkəzləşmiş vəsait hesabına məktəb tikintisi və əsaslı təmiri ilə bağlı verilmiş konkret sərəncamlar əsasında köçürmələrin aparılması və bu əməliyyatların mühasibat uçotunun təmin edilməsi, məktəb tikintisi ilə bağlı debitor və kreditor borclarının uçotunun təmin edilməsi, məktəbdəndənkənar tədbirlərin və Türkiyədə, Ukraynada, Misirdə, Rusiyada, Amerikada, İngiltərədə və digər xarici ölkələrdə dövlət xətti ilə və dövlət proqramları əsasında təhsil alan tələbələrin təhsil, yaşayış, tibbi sığorta, yol xərclərinin uçotunun aparılması və bu sahə üzrə rublük və illik hesabatın hazırlanması ilə bağlı işlər görülmüşdür.

Belə ki 4-cü “Təhsil” bölməsinin 7-ci köməkçi bölməsinin hesabat dövründə smeta xərcləri 49045574 manat, aparılmış maliyyələşmə 42757405 manat təşkil etmiş, Nazirliyin muvafiq sərəncamlarına əsasən mərkəzləşdirilmiş tədbirlərin həyata keçirilməsi üçün faktiki olaraq 42620363,29 manat xərclənilmişdir. Aparılan xərclər maliyyələşməyə nəzərən 99,7% faiz təşkil etmişdir.

2010-cu ildə Təhsil Nazirliyində 12 Dövlət Proqramı həyata keçirilmişdir ki, bu proqramların maliyyələşdirilməsi üçün 33524489.0 manat vəsaitin ayrılması nəzərdə tutulmuş, hesabat ərzində nəzərdə tutulan vəsaitin 27811409.0 manatı Nazirliyə ayrılmışdır. Ayrılan vəsaitin 27809339.15 manatı aidiyyəti üzrə xərclənilmişdir. Hər bir proqram üzrə nəzərdə tutulan, Maliyyə Nazirliyi tərəfindən ayrılan və xərclənən vəsait barədə məlumat aşağıdakı cədvəldə göstərilmişdir.

| Həyata keçirilən dövlət proqramları | 2010-ci ilin büdcəsində nəzərdə tutulmuş-dur | Ayrılan vəsait | 2010-ci ildə icra olun-muşdur | Xərc maddəsi |
|---|---|---|---|---|
| «Texniki peşə təhsilinin inkişaf proqramı (2007-2010-cu illər)»na əsasən nəzərdə tutulan tədbirlərlə bağlı xərclər | 48000 | 3713 | 3712,48 | 222200 |
| | 382800 | 382800 | 382800 | 225411 |
| | 201000 | 200900 | 200900 | 225412 |
| | 191000 | | | 225413 |

| | | | | |
|---|---|---|---|---|
| | 95700 | 95350 | 95350 | 311220 |
| | 301000 | 54741 | 54740,18 | 282100 |
| **CƏMİ** | **1219500** | **737504** | **737502,66** | |
| Məktəb kitabxanalarının maddi texniki bazasının möhkəmləndirilməsi və müasir informasiya texnologiyaları ilə təchizatına dair tədbirlərlə bağlı xərclər | 210000 | 209828 | 209828 | 225411 |
| | 52000 | 51776 | 51775 | 225412 |
| | 526000 | 526000 | 524766 | 225413 |
| | 48000 | 47990 | 47990 | 311220 |
| | 105000 | 105000 | 105000 | 282100 |
| **CƏMİ** | **941000.0** | **940594.0** | **939359.0** | |
| «Azərbaycan Respubli-kasında məktəbəqədər təhsilin yeniləşdirilməsi Proqramı(2007-2010-cu illər)»na əsasən nəzərdə tutulan tədbirlərlə bağlı xərclər | 765600 | 765586 | 765586 | 225200 |
| | 1435000 | 1433496 | 1433496 | 225411 |
| | 430000 | 429756 | 429755 | 225412 |
| | 957000 | 957000 | 957000 | 225413 |
| | 450000 | 443596 | 443595,75 | 311220 |
| | 24000 | | | 222200 |
| | 957000 | 957000 | 957000 | 282100 |
| **CƏMİ** | **5018600** | **4986434** | **4986432,75** | |
| Azərbaycan Respublikası Prezidentinin 29.03.2006-cı il tarixli 1386 №li Sərəncamı ilə təsdiq edilmiş «A. R. dövlət uşaq müəssisələrindən uşaqların ailələrə verilməsi (Deinstusionalizasiya) və alternativ qayğı Dövlət Proqramı(2006 2015 illər)»na əsasən | 30000 | | | 221200 |
| | 10000 | | | 222100 |
| | 20000 | 8195 | 8192,35 | 222200 |
| | 50000 | 50000 | 50000 | 225411 |
| | 25000 | 25000 | 25000 | 225412 |
| | 60000 | | | 225413 |
| | 50000 | 49560 | 49560 | 311220 |
| | 300000 | 210060 | 210058,56 | 282100 |
| **CƏMİ** | **545000** | **342815** | **342810,91** | |
| Azərbaycan Respublikası Prezidentinin 10 iyun 2008-ci il tarixli 2856 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "2008-2012-ci illərdə Azər-baycan Respublikasında təhsil sisteminin informasiyalaş-dırılması üzrə Dövlət Proqramı"na əsasən nəzərdə tutulan tədbirlərlə bağlı xərclər | 2020000 | 1217647 | 1247647 | 224920 |
| | 1350000 | 363436,60 | 363436,60 | 225413 |
| | | | | 282230 |
| | 7250000 | 3058323,00 | 3058320,56 | 311220 |
| | 5742000 | 4049820 | 4049818,38 | 282100 |
| **CƏMİ** | **16362000** | **8689226,60** | **8719222,54** | |

| | | | | |
|---|---|---|---|---|
| Azərbaycan Respublikası Prezidentinin 17.04.2006-ci il tarixli 1414 nömrəli Sərənca-mı ilə təsdiq edilmiş "Xüsusi istedada malik olan uşaqların (gənclərin) yaradıcılıq potensialının inkişafı üzrə Dövlət Proqramı(2006-2010-cu illər)"na əsasən nəzərdə tutulan tədbirlərlərlə bağlı xərclər | 90000 | 90000 | 90000 | 225411 |
| | 300000 | 300000 | 300000 | 225412 |
| | 120000 | 102330 | 102328,42 | 225413 |
| | 150000 | 150000 | 150000 | 311220 |
| | 40000 | 4495 | 3674,32 | 282100 |
| **CƏMİ** | **700000** | **646825** | **646002,74** | |
| Azərbaycan Respublikası NK-nın 03.02.2005-ci il tarixli 20 N-li qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında xüsusi qayğıya ehtiyacı olan (sağlamlıq imkanları məhdud) uşaqların təhsilinin təşkili üzrə inkişaf Proqramı(2005-2009-cu illər)"na əsasən nəzərdə tutulan tədbirlərlə bağlı xərclər | 152000 | 152000 | 152000 | 225412 |
| | 5000 | | | 225413 |
| | 30000 | 30000 | 30000 | 311220 |
| **CƏMİ** | **187000** | **182000** | **182000** | |
| Azərbaycan Respublikasında ümumi təhsil məktəblərinin avadanlıqlarla təminatı Pro-qramı(2005/2009-cu illər)"na əsasən nəzərdə tutulan tədbirlərlə bağlı xərclər | 3196000 | 3196000 | 3196000 | 225411 |
| **CƏMİ** | **3196000** | **3196000** | **3196000** | |
| Ümumi təhsil məktəblərinə tədris laboratoriya (fizika, kimya,biologiya) avadanlıqla-rının alınması xərcləri | 1914000 | 1912600 | 1912600 | 311220 |
| **CƏMİ** | **1914000** | **1912600** | **1912600** | |
| Bakı Şəhəri üzrə Təhsil İdarəsinin tabeliyində olan təhsil müəssisələrinə təsərrüfat fəaliyyəti və istismarı üzrə xidmət göstərilməsi xərcləri | 1460000 | 1447000 | 1447000 | 221320 |
| | 650000 | 650000 | 650000 | 224700 |
| | | | | |
| **CƏMİ** | **2110000** | **2097000** | **2097000** | |
| 2009-2013-cü illərdə Azərbaycan Respublikasının ali təhsil sistemində islahatlar üzrə Dövlət Proqramının maliyyə təminatı ilə bağlı xərclər | 41389 | 41389 | 41388,55 | 225413 |

| | | | | |
|---|---|---|---|---|
| **CƏMİ** | **41389** | **41389** | **41388,55** | |
| 2009-2013-cü illərdə Azərbaycanda şahmatın inkişaf etdirilməsi Dövlət Proqramının icrası olaraq regionlarda yerləşən şahmat məktəblərinin və klubların maddi-texniki bazasının möhkəmləndirilməsi ilə bağlı xərclər | 250000 | | | 282230 |
| | 182000 | 181520 | 181520 | 225411 |
| | 364000 | 363500 | 363500 | 311220 |
| | 234000 | 234000 | 234000 | 225412 |
| | 260000 | 260000 | 260000 | 314400 |
| **CƏMİ** | **1290000** | **1039020** | **1039020** | |
| Azərbaycan Respublikası Prezidentinin 21 dekabr 2009-cu il tarixli 187 N-li Fərmanının 2.4.9-cu bəndi -«Təhsil sahəsi üzrə istehsalat, sosial-mədəni məişət təyinatlı inzibati və idarəetmə obyektlərinin yenidən qurulması və əsaslı təmiri" ilə bağlı xərclər (nəzərdə tutulmuş vəsait Təhsil Nazirliyinin tabeliyində olan təhsil müəssisələrində əsaslı təmir işlərinin aparılması məqsədilə Nazirliyin nəzdində olan Əsaslı Tikinti idarəsinin hesabına köçürülmüşdür.) | | 3000000 | 3000000 | 282230 |
| **CƏMİ** | | **3000000** | **3000000** | |
| **Proqramlar üzrə cəmi** | **33524489** | **27809339** | **27809339,15** | |

Təhsil müəssisələrinə mərkəzləşmiş qaydada yumşaq inventar, inventar və avadanlıqlarla təmin olunması məqsədilə 2010-cu ildə 1325900.0 manat vəsaitin ayrılması nəzərdə tutulmuş və nəzərdə tutulan bu vəsaitə qarşı aparılan maliyyələşmələr 1313630 manat təşkil etmişdir. Açılan vəsaitin hamısı, yəni 1313630.0 manatı hesabat dövründə xərclənilmişdir.

Nazirliyin mərkələşdirilmiş vəsaitlər hesabına aparılan tədbirlərdən biri ümumi təhsil məktəbləri üçün dərsliklərin nəşri, çapı və daşınması, yeni dərslik və dərs vəsaitlərinin hazırlanması, tərcüməsi və nəşri, kor və zəif görən uşaqlar üçün Respublika internat məktəblərində təhsil alan zəif görən şagirdlər üçün iri şriftli və kor uşaq uşaqlar üçün brayl əlifbasının cap edilməsidir. Bu işlərin yerinə yetirilməsi xərclərinin ödənilməsi üçün 8447681.0 manat vəsaitin ayrılması planlaşdırılmış, planlaşdırılan vəsaitə qarşı açılan vəsait 8309170.0 manat təşkil etmişdir. Qeyd edilən tədbirlər üçün 8309168.0 manat xərclənilmişdir.

Məktəb sənədlərinin hazırlanması, digər metodiki iş, texniki təbliğat və təhsil üzrə sair mərkəzləşdirilmiş tədbirlərin xərcləri üçün 2042262.0 manat vəsaitin ayrılması planlaşdırılmış, nəzərdə tutulan vəsaitə qarşı 1911135.0 manat məbləğində maliyyələşmə aparılmışdır. Həmin tədbirlər üçün 1880871,44 manat məbləğində vəsait isə hesabat dövründə xərclənilmişdir.

Hesabat dövrü ərzində ali, orta ixtisas təhsili və yenidənhazırlanma təhsili haqqında diplomların, ixtisasartırma vəsiqələrinin və sürücülük təlim kursları, texniki peşə təhsili haqqında şəhadətnamələrin hazırlanması üzrə təsdiq edilmiş xərclər smetasına əsasən Təhsil Nazirliyinə Maliyyə Nazirliyi tərəfindən 575181.0 manat məbləğində maliyyələşmə edilmiş,

Nazirliyin müvafiq sərəncamlarına əsasən faktiki xərclənilən vəsaitin məbləği isə 575178.61 manat və ya maliyyələşmə məbləğinə nəzərən icra 99, 9 % təşkil etmişdir.
Hesabat dövründə Azərbaycan Respublikası Prezidentinin müvafiq fərman və sərəncamları əsasında ali məktəblərə daxil olmuş və yüksək bal toplamış 53 tələbəyə və 64 nəfər istedadlı şagirdə xüsusi Prezident təqaüdünün ödənilməsinin uçot və hesabatı aparılmışdır. Aşağıdakı cədvəldə həmin işlərin yerinə yetirilməsinin açıqlaması verilmişdir.

| Tədbirlərin adı | Dürüstləşm iş smeta (manatla) | Ayrılmış vəsait (manatla) | Xərclənmiş vəsait (manatla) |
|---|---|---|---|
| Qəbul imtahanlarında yüksək bal toplamış Qafqaz və Xəzər Universitetlərinə daxil olmuş tələbələrə Prezident təqaüdünün ödənilməsi | 80000 | 67200 | 52200 |
| İstedadlı şagirdlərə xüsusi təqaüdün ödənilməsi | 212700 | 212700 | 212700 |
| **Cəmi** | **292700** | **279900** | **264900** |

Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikası Prezidentinin 21 dekabr 2009-cu il tarixli 187 N-li Fərmanının 2.4.9-cu «Təhsil sahəsi üzrə istehsalat, sosial-mədəni məişət təyinatlı inzibatı və idarəetmə obyektlərinin yenidən qurulması və əsaslı təmiri ilə bağlı xərclər” bəndində nəzərdə tutulmuş vəsait hesabına Təhsil Nazirliyinin tabeliyində olan təhsil müəssisələrində əsaslı təmir işlərinin aparılması məqsədilə «Təhsil" bölməsi üzrə mərkəzləşdirilmiş vəsaitlərin 2010-cu il üçün dürüstləşdirilmiş xərclər smetasından əlavə 3000000,0 manat vəsait ayrılmışdır. Təhsil Nazirliyinin təmir olunacaq obyektlər üzrə təsdiq olunmuş bölgüsünə əsasən bu vəsait təhsil müəssisələrinin mərkəzləşdirilmiş qaydada əsaslı təmir işlərinin görülməsi məqsədilə Nazirliyin nəzdində olan Əsaslı Tikinti İdarəsinin hesabına köçürülmüşdür.

2010-cu ilin 11 ayı ərzində Azərbaycan Respublikası Nazirlər Kabinetinin 28.01.2010-ci il tarixli 19(s) nömrəli, 08.07.2010-ci il tarixli 192(s) nömrəli, 16.07.2010-ci il tarixli 202(s) nömrəli sərəncamlarına əsasən Dövlət Büdcəsindən Dövlət Əsaslı vəsait qoyuluşu üzrə nəzərdə tutulan (investisiya) vəsait hesabına təhsil müəssisələrinin tikintisi xərclərinin, əlavə sinif otaqlarının, idman zalı və uşaq bağçalarının tikintisi üçün Təhsil Nazirliyinə 65593552,80 manat vəsait ayrılmışdır. Bu vəsaitin təyinatı üzrə xərclənilməsi üçün qeyd edilən məbləğin 63593552,8 manatı Nazirliyin nəzdindəki Əsaslı Tikinti İdarəsinin, 2000000.0 manat isə Azərbaycan Milli Konservatoriyasının hesabına köçürülmüşdür.
Köçürülmüş bu vəsaitin konkret obyektlər üzrə icrasının mühasibat, bank uçotu və hesabatı təmin edilmişdir.

2010-ci lidə Azərbaycan Respublikası Prezidentinin 15.09.2010-ci il tarixli 1096 nömrəli, Azərbaycan Respublikası Prezidentinin 12.11.2010-cu il tarixli 1200 nömrəli Sərəncamlarına əsasən «Qəza vəziyyətində olan bir sıra ümumi təhsil məktəblərinə yeni binaların tikilməsi, mövcud binalarda bərpa və əsaslı təmir işlərinin aparılması” xərclərinin ödənilməsi üçün Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Təhsil Nazirliyinə 7704576.31 manat vəsait ayrılmış və həmin vəsaitin təyinatı üzrə icra edilməsi üçün 77045576.31 manatı Təhsil Nazirliyinin nəzdindəki Əsaslı Tikinti İdarəsinə köçürülmüşdür.

**4.4. Uçot və hesabat işlərinin avtomatlaşdırılması.**

Hesabat ilində Nazirliyin Mərkəzi aparatında “Mühasibat Uçotu” adlanan paket proqramı («Əməkhaqqı», «Bank», «Kassa», «Material Uçotu», «Sair debitor və kreditorlarla hesablaşmalar (178)», «Təhtəlhesab şəxslərlə hesablaşmalar (160), «Ödəmə tapşırığı», “200 və 211 balans hesabları”, “Baş kitab”proqramları) təkmilləşdirmə işləri aparılmışdır.

2010-cu il ərzində Təhsil Nazirliyinin hər bir əməkdaşının əməkhaqqı üzrə hesablaşmalar və onlardan 25 faiz həcmində ( 3 faiz əməkhaqqından tutulmalar, 22 faiz isə hesablanılmış əməkhaqqına üstəlik üçün ayrılmalar) tutulmalar barədə məlumatın hazırlanılması məqsədilə “Əməkhaqqı” proqramına əlavə modullar daxil edilmiş və alınan nəticələrin Dövlət Sosial Müdafiə Fondunda istifadə olunan “B3 Editor” proqramı ilə əlaqələndirilməsi üçün çıxış formalarının nəticələri qeyd edilən proqramın strukturuna uyğun tərtib edilərək bu nəticənin Excel elektron cədvəlinə ötürulməsinin proqram təminatı aparılmışdır.

Hesabat ilində “Ödəmə tapşırığı” proqramında da ciddi dəyişikliklər aparılmışdır. Belə ki, Dövlət Xəzinədarlıq Agentliklərinin göstərişi əsasında sənədin ümumi forması və çap (virtual çap) formatı dəyişdirilmişdir. Bununla əlaqədar olaraq Azərbaycan Respublikası Beynəlxalq Bankı ilə əlaqə saxlanılmış, virtual çap üçün proqram əldə edilmiş və şöbənin müvafiq əməkdaşlarının kompüterlərinə yüklənilmişdir.

Mütəmadi olaraq sektorda və ümümiyyətlə şöbədə istismar olunan proqramlarla işləyən əməkdaşlara əməli köməklik göstərilmişdir.

2010-cu ildə ali məktəblərdə tələbələrin hərəkətini əks etdirən 1-ali məktəb hesabat formasının avtomatlaşdırılmasının proqram təminatı aparılmışdır.

«MS DOS» əməliyyat sistemində işləyən «Yekun balans» proqramında da dəyişiklər aparılmışdır. Belə ki, “İdarələrin smeta xərclərinin icrası haqqında” 2N-li, “Büdcədənkənar vəsaitlərin smeta xərclərinin icrası haqqında” 4-icmal formalarında, debitor və kreditor borcları barədə məlumat formalarında “Ölkədaxili ezamiyyələr” və “Xarici ezamiyyələr” xərc maddələrinin alt maddələri ləğv edilmiş və onlara uyğun uzlaşmaların proqramlarında dəyişiklər aparılmışdır.

Qeyd edək ki, hesabat ilində vergi bəyannamələri Azərbaycan Respublikası Nazirlər Kabinetinin «Vergi hesabatının elektron sənəd formasında göndərilməsi Qaydası» barədə 27.07.2007-ci il tarixli, 120 N-li qərarına uyğun olaraq elektron sənəd formasında Azərbaycan Respublikası Vergilər Nazirliyinin müvafiq saytı vasitəsilə Bakı şəhər Vergilər Departamentinin 2N-li filialına göndərilmişdir.

Hesabat dövründə Azərbaycan Respublikası Dövlət Sosial Müdafiə Fondunun 20 fevral 2009-cu il tarixli, 119 N-li əmri ilə Dövlət Sosial Müdafiə Fonduna hesabatvermənin yeni formasına keçilmiş hesabat dövründə hesabatın elektron variantının internet vasitəsilə DSMF-a verilməsi təmin edilmişdir.

Hər ildə olduğu kimi, bu hesabat dövründə də də Nazirliyin Mərkəzi aparatının əməkdaşlarının əməkhaqqı, xəstəlik vərəqələri və digər müavinət və ödənişlərinin plastik kartlarla ödənilməsi məqsədilə qeyd olunan ödəniş cədvəllərinin elektron variantı hər ay İnternet vasitəsilə Azərbaycan Beynəlxalq Bankının əməliyyatçısının (Təhsil Nazirliyinin kuratorunun) E-mail ünvanına göndərilmişdir.

2010-cu hesabat ilində mühasibat əməliyyatlarının avtomatlaşdırılması, avtomatlaşdırmada proqramlar arası əlaqə vasitələrindən istifadə edilməsi və onun əhəmiyyəti barədə “Maliyyə və Uçot”, “Audit”, “İdarəetmə və mühasibat uçotu”, “Azərbaycan məktəbi” elmi-praktik jurnallarında çıxışlar edilmişdir.

## V. Xaricdə təhsil.

### 5.1. Dövlət xətti ilə təhsil sahəsində əməkdaşlıq haqqında ikitərəfli razılaşmalar əsasında xaricdə təhsil.

Nazirliyin Mərkəzləşdirilmiş vəsaitlər hesabı üzrə görülən işlərdən biri də dövlət xətti ilə xarici ölkələrin ali məktəblərində təhsil alan tələbələrin xərclərinin (təhsil haqqı, yaşayış, tibbi sığorta, yol və s.) ödənilməsinin uçotu və hesabatının aparılmasıdır.

Belə ki, 01.12.09-cu il tarixə xarici ölkələrin ali məktəblərində dövlət xətti ilə 789 nəfər tələbə, aspirant və doktorant təhsil alır ki, onlardan 503 nəfəri Türkiyə Respublikasının, 234 nəfəri Rusiya Federasiyasının, 26 nəfəri Çin Xalq Respublikasının, 14 nəfəri Misir Ərəb Respublikasının, 8 nəfəri Koreya Respublikasının, 2 nəfəri Çexiya Respublikasının, 2 nəfəri isə Slovakiya Respublikasının ali məktəblərinin payına düşür.

Bu vətəndaşların təhsilinin alınması ilə bağlı hesabat dövrü ərzində Maliyyə Nazirliyi tərəfindən dəqiqləşdirilmiş xərclər smetasına əsasən 1013398,0 manat məbləğində vəsait ayrılmış, Nazirliyin müvafiq sərəncamlarına əsasən faktiki xərclənilən vəsaitin məbləği isə 1006844,34 manat və ya maliyyələşmə məbləğinə nəzərən icra 99,35 % təşkil etmişdir. Aşağıdakı cədvəldə dövlət xətti ilə xarici ölkələrdə təhsil alan tələbə, aspirant və doktorantlara çəkilən xərclərin təsnifatı verilmişdir.

| Tədbirlərin adı | Nəzərdə tutulan | Ayrılmış | Xərclənilmiş |
|---|---|---|---|

| | vəsaitin məbləği (manatla) | vəsaitin məbləği (manatla) | vəsaitin məbləği (manatla) |
|---|---|---|---|
| Təhsil haqqı və yaşayış xərcləri | 50000,00 | 0 | 0 |
| Təqaüdün ödənilməsi | 782000,00 | 774379,00 | 767830,15 |
| Tələbələrin yol xərcinin ödənilməsi | 350000,00 | 239019,00 | 239014,19 |
| **Cəmi** | **1182000,00** | **1013398,00** | **1006844,34** |

Hesabat dövründə dövlət xətti ilə Türkiyənin ali məktəblərində təhsil alan 503 nəfərə (İstanbul zonası üzrə 297 nəfərə və Ankara zonası üzrə 206 nəfərə) hər bir doktorant və uzmana ayda 200 ABŞ dolları, hər bir tələbəyə isə 100 ABŞ dolların məzənnəsi ilə İstanbul Konsulluğunun və Azərbaycan Respublikasının Ankaradakı Səfirliyinin köməkliyi ilə 463929,31 manat, Misir Ərəb Respublikasının ali məktəblərində təhsil alan 14 nəfər tələbənin hər birinə ayda 100 ABŞ dollarının məzənnəsi ilə Azərbaycan Respublikasının Misir Ərəb Respublikasındakı Səfirliyinin köməkliyi ilə 12757,11 manat, Rusiya Federasiyasında Ümumrusiya Konqresinin xətti ilə təhsil alan 114 nəfər tələbənin hər birinə ayda 150 ABŞ dolları məzənnəsi ilə Ümumrusiya Konqresinin köməkliyi ilə 125801,14 manat təqaüdün ödənilməsi həyata keçirilmişdir.

Bu dövr ərzində vaxtaşarı olaraq təqaüdün paylanması barədə köməklik göstərən təşkilatlardan hesabatlar, məktublar alınmış və onların müvafiq hesablarında müəyyən səbəblərdən istifadə olunmamış qalan təqaüd barədə məlumatlara görə lazımı tədbirlər görülmüşdür.

Bundan başqa Rusiya Federasiyasının ali məktəblərində təhsil alan 1 nəfər doktoranta ayda 300 ABŞ dolları, 16 nəfər aspiranta ayda 250 ABŞ dolları və 108 nəfər tələbəyə hər birinə ayda 150 ABŞ dollarının məzənnəsi ilə 165342,59 manat məbləğində təqaüd onların Beynəlxalq və ya Standard banklarda açdıqları şəxsi bank hesablarına köçürülmüşdür. Bu köçürmələrlə bağlı yaranmış problemlər vaxtında aradan qaldırılmışdır.

Dövlət xətti ilə təhsil alan tələbələrin tətil dövründə təhsil yerindən vətənə dönmələri və təhsil yerinə getmələri ilə bağlı yol xərclərinin ödənilməsi üçün Maliyyə Nazirliyi tərəfindən ayrılmış vəsaitdən 204915,07 manatı Nazirliyin Beynəlxalq əlaqələr şöbəsi tərəfindən tələbələrə verilən məktublar əsasında (hesablar və biletlərin surətlərinə əsasən üzləşmə işləri aparıldıqdan sonra) Təhsil Nazirliyinin «Xəzər» firması arasında bağlanmış 2010-cu il tarixli müqaviləyə əsasən «Xəzər» firmasının müvafiq hesabına köçürülmüşdür. Həmin vəsaitin 34099,12 manat isə tələbələrin şəxsi ərizələrinə və biletlərinə əsasən onların şəxsi bank hesablarına köçürülmüşdür.

**5.2. «2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı»nın icrası**.

2007-ci ildən başlayaraq hal-hazıra kimi “2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı” çərçivəsində dünyanın 24 ölkəsinə (Türkiyə, Almaniya, B.Britaniya, Rusiya, Fransa, Kanada, Niderland K., Koreya, ABŞ, İsveç K., İsveçrə, Avstraliya Çexiya, İtaliya, Avstriya, Sinqapur, İspaniya,Y.Zellandiya, Malayziya, Çin, Belçika K., İrlandiya, Yaponiya, Finlandiya) təhsil almaq üçün 578 nəfər tələbə göndərilmişdir. Göndərilən tələbələrin 258 nəfəri 2010-cu ilin payına düşür.

Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 16 aprel 2090 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı”nın icrası ilə bağlı əlavə tədbirlər barədə Nazirlər Kabinetinin 07 aprel tarixli, 2746 nömrəli Sərəncamına uyğun olaraq 2010-cu ilin 11 ayı ərzində Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili ilə bağlı xərclərinin maliyyələşdirilməsi Azərbaycan Respublikası Dövlət Neft Fondunun büdcəsinin hesabına həyata keçirilmişdir.

Cari ilin 11 ayı ərzində Təhsil Nazirliyinin Dövlət Neft Fonduna ünvanlanmış konkret xərclərə dair 53 sifarişinə əsasən xaricdə təhsil alanların təhsil xərclərinin ödənilməsi üçün Neft Fondu tərəfindən Təhsil Nazirliyinin hesabına 6772494.51 manat məbləğində vəsait ayrılmışdır.

Ayrılan vəsaitin 6420197.79 manatı 11 ay ərzində xərclənmiş, 01.12.2010-cu il vəziyyətinə Təhsil Nazirliyinin hesabında 352296.72 manat vəsait qalığı olmuşdur. Bu qalıq vəsaiti 2010-cu ilin dekabr ayında xaricdə təhsil alanların təhsil xərclərinin ödənilməsinə sərf ediləcəkdir.

Dövlət Proqramı çərçivəsində xaricdə təhsil alanlara təhsil xərclərinin – təhsil haqları, yol, qeydiyyat, yaşayış, viza və sığorta xərclərinin ödənilməsi üçün təqdim olunmuş maliyyə sənədləri əsasında müvafiq sifarişlər hazırlanaraq Neft Fonduna təqdim olunmuşdur. Neft Fondu tərəfindən təhsil haqlarının maliyyələşdirilməsi məqsədi ilə açılmış vəsait qeyd olunan ölkələrin müvafiq ali məktəblərinin bank hesablarına, yaşayış, viza, qeydiyyat və sığorta xərclərinin maliyyələşdirilməsi üçün açılmış vəsait isə təhsil alanların müvafiq şəxsi hesablarına köçürülmüşdür.

Ümumi qayda əsasında təhsil haqları təhsil müəssisələri tərəfindən təqdim olunmuş müvafiq maliyyə sənədlərinə əsasən təhsil müəssisələrinin hesabına köçürülür. Lakin təhsil haqqı, yol, qeydiyyat, viza və sığorta xərcləri təhsil alanın öz şəxsi vəsaiti hesabına ödənildiyi hallarda, həmin tələbələr tərəfindən Nazirliyə təqdim olunmuş müvafiq təsdiqedici ödəniş sənədləri əsasında vəsait Nazirlik tərəfindən bu tələbələrin şəxsi hesablarına köçürülmüşdür.

Hesabat dövründə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 261 nömrəli, 27.11.2008-ci il tarixli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan gənclərinin xarici ölkələrin ali məktəblərində təhsil xərclərinin ödənilməsi qaydaları"na əsasən aylıq yaşayış normalarına və təhsil müəssisələri tərəfindən təhsil alan tələbələrin tədrisə başladıqları tarixlərə dair təqdim olunmuş arayışlara əsasən hər bir tələbəyə 2010-cu ilin dekabr ayına kimi yaşayış xərclərinin hesablanıb ödənilməsi təmin edilmişdir.

Cari ildə Təhsil Nazirliyi və "Xəzər" firması arasında imzalanmış 01N-li, 02.04.2010-cu il tarixli müqaviləyə əsasən Dövlət Proqramı çərçivəsində xaricdə təhsil alan tələbələrin ildə bir dəfə təhsil yerinə getmək və tədris ilinin sonunda Vətənə dönmələri ilə bağlı tələbələrə yol biletlərinin verilməsi "Xəzər" firması tərəfindən həyata keçirilmişdir. "Xəzər" firması tərəfindən daxil olmuş hesablara əsasən 283 nəfər tələbənin aviabiletlə təmin edilməsi müəyyən edilmişdir.

Dövlət Proqramının həyata keçirilməsi ilə bağlı olaraq 2007-ci ildən başlayaraq Təhsil Nazirliyi Almaniyanın DAAD, Fransanın CNOUS və ABŞ-ın Fulbright tərəfdaş qurumları ilə əməkdaşlıq edir. Hər tədris ili üçün qeyd olunan tərəfdaş qurumlar tərəfindən Təhsil Nazirliyinə daxil olmuş rəsmi maliyyə sənədləri əsasında Neft Fonduna müvafiq sifarişlər hazırlanıb ünvanlanır. Neft Fondunun razılıq məktubuna əsasən xaricdə təhsil alanların illik təhsil xərcləri müvafiq köçürmə sənədləri əsasında həmin qurumların bank hesablarına köçürülür.

## VI. Təhsil Nazirliyinin rüblük və illik hesabatlarının qəbulu, icmallaşdırılması və təhlili.

İş planına uyğun olaraq 2010-cu ilin yanvar, fevral, mart aylarında Təhsil Nazirliyi tərəfindən maliyyələşən tabe müəssisə və təşkilatlar üzrə 2009-cu ilin illik hesabatları, 2010-cu ilin iyul, avqust aylarında 2010-cu ilin yarımillik və oktyabr, noyabr aylarında isə 2010-cu ilin 9 aylıq mühasibat hesabatları hər bir tədris müəssisəsinin «Xərclər smetasının icrası balansı» və ona əlavə edilən hər bir hesabat forması və sənədləri ilə birlikdə təhlil edilmiş, balans və əlavə hesabat formalarının daxili və bir-biri ilə əlaqəli uzlaşmaları yoxlanılmış və bütün hesabat formaları üzrə informasiyalar kompüterə yığılmış, əlavə olaraq kompüterdə yoxlanıldıqdan və ayrı-ayrı sahələr üzrə yekun hesabat tərtib edildikdən sonra Nazirlik üzrə yekun hesabat tərtib edilmişdir. Hesabat formalarının kompüter variantının hazırlanılması, yəni emal olunmuş informasiyaların yekun nəticələrinin avtomatik qaydada EXCEL elektron cədvəldə hesabatların hazırlanmış formalarına doldurulması və Nazirlik üzrə yekun hesabatların alınması təmin edilmişdir. Alınmış yekun hesabatlar təhlil edilmiş, balans və ona əlavə edilən digər hesabat formalarının daxili və bir-biri ilə əlaqəli uzlaşmaları yoxlanılmışdır. Aşkar edilmiş nöqsanların, səhvlərin tapılması üçün əlavə kiçik proqram modulları yaradılmış və informasiyaların emalı zamanı buraxılmış səhvlərin səbəbləri aşkarlanaraq aradan qaldırılmışdır.

Tərtib edilmiş yekun hesabatın Maliyyə Nazirliyinə təqdim edilməsi üçün izahatlar hazırlanılmış və rəhbərlik tərəfindən imzalandıqdan sonra yekun hesabatın direktiv orqanlara verilməsi təmin edilmişdir. Başqa sözlə, hesabat göstəriciləri əsasında direktiv orqanlar

tərəfindən aparılmış təhlil əsasında ortaya çıxan suallara müvafiq cavablar və izahatalar verilmişdir.

"Mühasibat Uçotu haqqında Azərbaycan Respublikası Qanunu"na əsasən 2010-cu ildə budcə müəssisələrində Milli Mühasibat Uçotu Standartlarına keçidlə əlaqədar olaraq 2009-cu ilin illik uçotunun yeni Standartlar əsasında qurulması- yəni bütün balans hesabları üzrə göstəricilərin Milli Mühasibat Uçotu Standartlarına uyğun muxabirləşmələr əsasında jurnal order formasının, dövriyyə cədvəlinin yaradılması, hazırlanılmış dövriyyə əsasında maliyyə hesabatlarının ("Maliyyə vəziyyəti haqqında hesabat", "Maliyyə fəaliyyətinin nəticələri haqqında hesabat", "Xalis kapital/Kapitalda dəyişiklik haqqında hesabat", "Pul vəsaitlərinin hərəkəti haqqında hesabat" formalarının) tərtib edilərək Maliyyə Nazirliyinə təqdim edilməsi nəzərdə tutulmuşdur.

Bu işin yerinə yetirilməsi məqsədilə Təhsil Nazirliyinin İqtisadiyyat şöbəsinin Mühasibat Uçotu və Hesabat sektorunun 5 əməkdaşı Nazirliyin göstərişi əsasında Professional Mühasiblər Məktəbində 3 aylıq kursda olmuşlar. 2010-cu ilin yanvar ayında həmin əməkdaşlar Peşəkar Mühasiblər Məktəbində test imtahanı verərək müfaviq diplomlara layiq görülmüşlər. Nəzəri biliklərlə yanaşı praktiki biliklərin əldə edilməsi, real göstəricilər əsasında hesabatların tərtib edilməsi məqsədilə Nazirliyin İqtisadiyyat şöbəsinin Mühasibat Uçotu və Hesabat sektorunun 2 əməkdaşı 2010-cu ilin yanvar ayında Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Milli Mühasibat Uçotu Standartlarına keçidlə əlaqədar olaraq təşkil etdiyi kurslarda iştirak etmişlər.

Maliyyə Nazirliyinin Uçot Siyasəti şöbəsinin işçiləri ilə sıx əməkdaşlıq aparılmış, 2010-cu ilin aprel ayında Təhsil Nazirliyinin və Bakı Şəhəri üzrə Təhsil İdarəsinin mərkəzi aparatlarının 2009-cu il üzrə mühasibat əməliyyatlarının Milli Mühasibat Uçotu Standartlarına uyğun yeni muxabirləşmələr əsasında jurnal orderlərin, dövriyyə cədvəllərinin, "Maliyyə vəziyyəti haqqında hesabat", "Maliyyə fəaliyyətinin nəticələri haqqında hesabat", "Xalis kapital/Kapitalda dəyişiklik haqqında hesabat", "Pul vəsaitlərinin hərəkəti haqqında hesabat" formalarının tərtib edilərək Azərbaycan Respublikası Maliyyə Nazirliyinə təqdim edilməsi təmin edilmişdir.

2010-cu ilin may-iyun aylarında Təhsil Nazirliyinin tabeliyində olan təşkilatların 2009-cu il üzrə mühasibat əməliyyatlarının Milli Mühasibat Uçotu Standartlarına uyğun yeni muxabirləşmələr əsasında jurnal order formasının, dövriyyə cədvəllərinin və buna uyğun olaraq "Maliyyə vəziyyəti haqqında hesabat", "Maliyyə fəaliyyətinin nəticələri haqqında hesabat", "Xalis kapital/Kapitalda dəyişiklik haqqında hesabat", "Pul vəsaitlərinin hərəkəti haqqında hesabat" formalarının tərtib edilərək Azərbaycan Respublikası Maliyyə Nazirliyinə təqdim edilməsi təmin edilmişdir. Belə ki, müəssisə və təşkilatların təqdim etdiyi hesabatlar təhlil edilmiş, nöqsanların aradan qaldırılması məqsədilə hər təşkilata əməli köməklik göstərilmiş, bütün hesabatlar Excel elektron cədvəlində tərtib edilmiş jurnal order forması, dövriyyə cədvəlləri, "Maliyyə vəziyyəti haqqında hesabat", "Maliyyə fəaliyyətinin nəticələri haqqında hesabat", "Xalis kapital/Kapitalda dəyişiklik haqqında hesabat", "Pul vəsaitlərinin hərəkəti haqqında hesabat" formaları arasında makrokomandalar yaradılaraq Nazirlik üzrə yekun hesabatın alınmasına nail olunmuşdur. Azərbaycan Respublikası Maliyyə Nazirliyinin təqdim etdiyi qrafikə uyğun olaraq 2010-cu ilin iyun ayının sonunda Nazirlik üzrə Milli Mühasibat Uçotu Standartlarına uyğun tərtib edilmiş yekun hesabat və bu hesabata hazırlanılmış izahat Maliyyə Nazirliyinə təqdim edilmişdir.

**VII. Statistik hesabatlar və onların təhlili.**

Hesabat dövrü ərzində məktəbəqədər tərbiyə, ümumi təhsil məktəbləri və məktəbdənkənar müəssisələrin şəbəkə üzrə proqnoz göstəriciləri hazırlanmışdır.

Dövlət Statistika Komitəsinin təsdiq etdiyi qrafik üzrə il ərzində Təhsil Nazirliyi sistemində mövcud olan 4518 ümumi təhsil məktəbləri, 1571 məktəbəqədər tərbiyə müəssisələri, 374 məktəbdənkənar müəssisələr və 6 uşaq evi üzrə 16 adda müxtəlif statistik hesabat formaları qəbul edilmişdir.

Hesabat göstəricilərinin düzgünlüyü yoxlanıldıqdan sonra həmin məlumatlar Exsel, FoxPro-6 formatında tərtib edilmiş cədvəllərə yığılmış, işlənilmiş və əldə olunmuş göstəricilərin əvvəlki dövrlərlə müqayisədə artma, azalma tendensiyaları təhlil olunmuşdur.

2010/2011-ci dərs ilinin əvvəlinə Təhsil Nazirliyi üzrə 4518 ümumi təhsil məktəblərində şagirdlərin sayı 1371513 nəfər təşkil etmişdir. Şagirdlərin sayi 4492 gündüz ümumi təhsil məktəblərində 1307750 nəfər, 7 axşam (qiyabi) ümumi təhsil məktəblərində 2968 nəfər, 19 sağlamlıq imkanları məhdud olan uşaqlar üçün məktəb və internat məktəblərində 6795 nəfər təşkil etmişdir. Məktəblərin ümumi sayı üzrə şagirdlərin sayı 13 gimnaziyada 9570 nəfər, 59 liseydə 34536 nəfər, 22 internat məktəblərində isə 6395 nəfər şagird təşkil etmişdir. Keçən illə müqayisədə 7 gündüz ümumi təhsil məktəbi, şagirdlərin sayı isə 40036 nəfər azalmışdır. I siniflərdə şagirdlərin sayı 120032 nəfər təşkil etmişdir ki, bu da keçən ilə nisbətən 1495 nəfər artmışdır. Bundan əlavə hal-hazırda gündüz ümumi təhsil məktəblərində 78769 sinif komplekti fəaliyyət göstərir ki, bu da keçən dərs ili ilə müqayisədə 1578 sinif azdır. Siniflərdə şagirdlərin orta sıxlığı 2009/2010-cu dərs ilində 16,8 olduğu halda 2010/2011-ci dərs ilində 16,6 olmuşdur. 2009/2010-cu dərs ilinin sonuna IX sinifləri 125696 nəfər bitirmişdir. Onlardan 100480 nəfəri X sinifdə təhsillərini davam etdirir ki, bu da ümumi sayın 79,9%-ni təşkil edir.

Hazırlanmış yekun hesabatlar qrafik üzrə Dövlət Statistika Komitəsinə təqdim edilmişdir.

Statistik hesabat formalarının daha da təkmilləşdirilməsi məqsədilə kənd rayonları üzrə ümumi təhsil, Strateji təhlil, planlaşdırma və kadrların idarəolunması və Təhsilin idarəolunmasının məlumat sistemləri şöbələri ilə birlikdə Dövlət Statistika Komitəsi ilə razılaşdırılaraq statistik hesabat formalarında müəyyən dəyişikliklər edilmişdir.

Şöbə tərəfindən mütəmadi olaraq aparılan işlərdən biri də, yeni məktəblərin açılması, fəaliyyət göstərən məktəblərin tipinin dəyişdirilməsi, məktəb şəbəkəsində dəyişikliklərin aparılması, bu məsələlərlə bağlı Azərbaycan Respublikası Nazirlər Kabinetinin 14 may 2003-cü il tarixli, 67 saylı qərarı ilə təsdiq edilmiş «Dövlət büdcəsindən maliyyələşən təlim-tərbiyə və təhsil müəssisələrinin yaradılması, genişləndirilməsi, yenidən təşkili və ləğv edilməsi Qaydaları»na müvafiq olaraq Maliyyə Nazirliyi və Dövlət Əmlakının İdarə Edilməsi Dövlət Komitəsi qarşısında vəsatətlərin qaldırılması olmuşdur.

Hesabat ilində Maliyyə Nazirliyinin və Əmlak Məsələləri Dövlət Komitəsinin razılığına əsasən Təhsil Nazirliyinin müvafiq əmrləri ilə 4 uşaq bağçası, 1 ibtidai məktəb açılmış, 1 tam orta məktəb liseyə, 2 ümumi orta məktəb tam orta məktəbə çevrilmişdir.

Bununla bərabər 1 ümumi orta məktəb ibtidai məktəbə, 9 tam orta məktəb ümumi orta məktəbə çevrilmiş, 4 ibtidai, 1 ümumi orta və 2 tam orta məktəblərin fəaliyyəti dayandırılmışdır.

Mütəmadi olaraq Nazirliyin şöbələrinə, Təhsil Sektorunun İnkişafı üzrə İkinci Layihənin «Məktəb şəbəkələrinin rasionallaşdırılması və maliyyə islahatlarının qiymətləndirilməsi» alt-komponent kordinatoruna və rəhbərliyə təhsil sahəsinin müxtəlif sahələrinə aid statistik məlumatlar verilmişdir.

İş planına uyğun olaraq mərkəzi aparat üzrə aylıq, rüblük və illik statistik hesabatları hazırlanıb Nərimanov rayon statistika şöbəsinə təqdim edilmişdir.

2010/2011-ci tədris ilinin əvvəlinə 20 dövlət ali, 45 dövlət orta ixtisas müəssisələrinin 1-ali məktəb bakalavr, magistratura və 1-orta ixtisas statistik hesabatları qəbul edilərək, bölmələr üzrə icmallaşdırıb və təhlil aparılıb. 108 peşə təhsili müəssisəsinin 1 "a" hesabat forması qəbul edilərək bölmələr üzrə icmallaşdırılmışdır. Bu məlumatların Nazirliyin tədris müəssisələri haqqında statistik məcmuəsinə, bir qisminin isə Nazirliyin internet səhifəsinə daxil edilməsi nəzərdə tutulub.

Təhlil zamanı məlum olmuşdur ki, 2010/2011-ci tədris ilində ali məktəblərdə təhsil alan tələbələrin sayı 98113 nəfər (o cümlədən: dövlət hesabına təhsil alanlar 40273 nəfər, ödənişli əsaslarla təhsil alanlar 57840 nəfər) təşkil etmişdir. 2009/2010-cu tədris ilində ali məktəblərdə təhsil alan tələbələrin sayı 95145 nəfər (o cümlədən: dövlət hesabına təhsil alanlar 42146 nəfər, ödənişli əsaslarla təhsil alanlar 52999 nəfər) olmuşdur. Ötən tədris ilinə nisbətən tələbələrin sayı 3,1 % (2968 nəfər) artmışdır.

Göründüyü kimi, 2010/2011-ci tədris ilində dövlət hesabına təhsil alan tələbələrin xüsusi çəkisi 41,0 %, 2009/2010-cu tədris ilində isə bu göstərici 44.3 % təşkil etmişdir. Belə ki, ötən ilə nisbətən dövlət hesabına təhsil alan tələbələrin sayı 4,4 % (1873 nəfər) azalmış, ödənişli əsaslarla təhsil alan tələbələrin sayı isə 9,1 % (4841 nəfər) artmışdır.

2010/2011-ci tədris ilində bakalavr pilləsi üzrə qəbul planı 97,2% yerinə yetirildiyi halda, ötən tədris ilində bu göstərici 98,5 % təşkil etmişdir. 2010/2011-ci tədris ilində magistratura pilləsinə qəbul planı isə 84.9 % yerinə yetirilmişdir ki, burada da ötən tədris ili ilə müqayisədə 3.9 % artım müşahidə olunur (ötən il bu göstərici 81 % təşkil etmişdir).

2010/2011-ci tədris ilində orta ixtisas məktəblərində təhsil alan tələbələrin sayı 44133 nəfər (o cümlədən: dövlət hesabına təhsil alanlar 26697 nəfər, ödənişli əsaslarla təhsil alanlar 17436 nəfər) təşkil etmişdir. 2009/2010-cu tədris ilində orta ixtisas məktəblərində tələbələrin sayı 43641 nəfər (o cümlədən: dövlət hesabına təhsil alanlar 27131 nəfər, ödənişli əsaslarla təhsil alanlar 16510 nəfər) olmuşdur. Ötən tədris ilinə nisbətən tələbələrin sayı 1,1 % (492 nəfər) artmışdır.

Göründüyü kimi, 2010/2011-ci tədris ilində dövlət hesabına təhsil alan tələbələrin xüsusi çəkisi 60,5 %, 2009/2010-cu tədris ilində isə bu göstərici 62,2 % təşkil etmişdir. Belə ki, ötən ilə nisbətən dövlət hesabına təhsil alan tələbələrin sayı 1,6 % (434 nəfər) azalmışdır, ödənişli əsaslarla təhsil alan tələbələrin sayı isə 5,6% (926 nəfər) artmışdır.

2010/2011-ci tədris ilində orta ixtisas məktəbləri üzrə qəbul planı 92,8% yerinə yetirildiyi halda, ötən tədris ilində bu göstərici 96,4 % təşkil etmişdir.

2010/2011-ci tədris ilində peşə məktəblərində və peşə liseylərində təhsil alan şagirdlərin sayı 27672 nəfər (o cümlədən: dövlət hesabına təhsil alanlar 25999 nəfər, ödənişli əsaslarla təhsil alanlar 1673 nəfər) təşkil etmişdir. 2009/2010-cu tədris ilində peşə məktəblərində və peşə liseylərində şagirdlərin sayı 25604 nəfər (o cümlədən: dövlət hesabına təhsil alanlar 24098 nəfər, ödənişli əsaslarla təhsil alanlar 1506 nəfər) olmuşdur. Ötən tədris ilinə nisbətən şagirdlərin sayı 8,1 % (2068 nəfər) artmışdır.

2010/2011-ci tədris ilində peşə məktəbləri və peşə liseyləri üzrə qəbul planı 97 % yerinə yetirildiyi halda, ötən tədris ilində bu göstərici 96 % təşkil etmişdir.

45 orta ixtisas məktəbin və 20 ali məktəbin 2010-2011-ci tədris ilin qəbul planları ilə bağlı təkliflər toplanılıb. Bu təkliflər əsasında icmal sənədlər hazırlanıb. Ali və orta ixtisas təhsili şöbəsi ilə birgə təhlil apardıqdan sonra təkliflər Nazirlər Kabinetinə təqdim edilib.

Nazirliyin müvafiq şöbələri ilə birlikdə 2010-cu il gözlənilən və 2011-2014-cü illər üçün proqnoz göstəriciləri hazırlanıb İqtisadi İnkişaf Nazirliyinə təqdim edilib.

Nazirliyin internet səhifəsinə il ərzində şöbə əməkdaşlarının iştirak etdiyi seminar və iclaslarla bağlı məlumatlar daxil edilmişdir. Həmçinin Təhsil Nazirliyinin internet saytına dövlət büdcəsinin tərkibində təhsilə ayrılan ümumi xərclər, təhsilə yönəldilmiş investisiya xərcləri, ölkəmizdə təmir edilən və yeni inşa olunan məktəblər haqqında məlumat və məktəbəqədər, ümumtəhsil, orta ixtisas, ali, peşə məktəbləri və peşə liseyləri üzrə əsas göstəricilər yenilənmişdir.

**VIII.Əməkhaqqı məsələləri.**

Hesabat ilində müvafiq orqanlar tərəfindən əməkhaqqı və sosial məsələlərə dair il ərzində verilən qərar və sərəncamların yerlərə çatdırılması və icrası ilə bağlı bir sıra işlər görülmüşdür.

2010-cu ilin yanvar ayında təqdim edilən illik hesabatlarda işçilərə əməkhaqqının ödənişi ilə əlaqədar göstəricilər nəzərdən keçirilmiş, aşkar edilən nöqsanların aradan qaldırılması məqsədilə lazımi izahatlar verilmişdir.

Təhsil Nazirliyi tərəfindən maliyyələşdirilən müəssisələrinin təqdim etdikləri ştat cədvəllərinin qüvvədə olan normativ sənədlərə uyğunluğu dəqiqləşdirilmişdir. Ştat cədvəllərində vəzifələrin düzgün yazılması və ödəniş dərəcələrinin müvafiq normativ sənədlərə uyğun göstərilməsinə diqqət yetirilmişdir. İllik hesabatların təqdim edildiyi zaman mühasiblərə təhsil işçilərinin əməkhaqının ödənişi ilə əlaqədar praktiki köməkliklər göstərilmişdir.

2010-cu ilin əvvəlində iş yerindən məhrum olmuş və özlərindən asılı olmayan səbəblərə görə işləməyən məcburi köçkün olan təhsil işçilərinin əməkhaqqının ödənilməsi ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarına əsasən Təhsil Nazirliyinin müvafiq əmr layihəsi hazırlanıb, imzalandıqdan sonra təhsil şöbələrinə və təhsil müəssisələrinə çatdırılmışdır.

Azərbaycan Respublikasının Baş Prokurorluğunun məktubuna əsasən Təhsil nazirliyinin əmri ilə kənd rayonları üzrə ümumi təhsil şöbəsinin əməkdaşı ilə birlikdə beş gün müddətində

Tovuz rayonunun Qovlyar qəsəbə tam orta məktəbində yoxlama aparılmış və yoxlamanın nəticəsi olaraq Respublika Baş Prokurorluğuna göndərmək üçün müvafiq arayış hazırlanmışdır.

Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2010-cu il 27 may tarixli 98 nömrəli "Dövlət və bələdiyyə təhsil müəssisələrində işləyən elmi-pedaqoji kadrların vəzifə maaşlarına elmi dərəcələrə və elmi adlara görə əlavələrin həcminin müəyyən edilməsi haqqında" qərarı əsasında Təhsil Nazirliyinin əmr layihəsi hazırlanmış, imzalandıqdan sonra icra üçün ali təhsil müəssisələrinə göndərilmişdir.

Maliyyə Nazirliyi və Hesablama Palatası tərəfindən təhsil müəssisələrində aparılan yoxlamalar nəticəsində yaranan mübahisəli məsələlərin aydınlaşdırılması məqsədilə təhsil müəssisələrindən və təhsil şöbələrindən daxil olan müxtəlif məzmunlu sorğu məktublarına cavab hazırlanmışdır.

Rəhbərliyin göstərişinə əsasən təhsil sistemində çalışan müxtəlif kateqoriya işçilərin mövcud əməkhaqqına dair arayışlar və cədvəllər hazırlanıb təqdim edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin "Təhsil müssisələrində çalışan işçilərin əməkhaqlarının artırılması haqqında" 2010-cu il 06 sentyabr tarixli sərəncamının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Dövlət büdcəsindən maliyyələşdirilən sahələrdə çalışan işçilərin Vahid Tarif Cədvəli ilə müəyyən edilmiş aylıq tarif (vəzifə) maaşlarının tənzimlənməsi haqqında" qərarına əsasən Təhsil Nazirliyinin əmri hazırlanmış və imzalandıqdan sonra icra üçün yerlərə göndərilmişdir.

2010-cu ilin 1 sentyabrından təhsil işçilərinin əməkhaqqının artırılması ilə əlaqədar ödəniş dərəcələri üzrə məbləğlərin düzgün müəyyənləşdirilməsi üçün lazımi izahat işləri aparılmışdır.

Nazirliyin tabeliyində olan təhsil müəssisələri tərəfindən 2010-2011-ci tədris ili üçün tərtib edilən və Təhsil Nazirliyinə təqdim edilən tarifləşmə cədvəlləri nəzərdən keçirilmiş və təhlil edilmişdir.Cədvəllərdə aşkar edilən nöqsan və çatışmamazlıqların aradan qaldırılması məqsədilə müvafiq tədbirlər görülmüşdür. Pedaqoji işçilərin əsas, əvəzçi və saathesabı ödəniş qaydaları ilə əlaqədar izahat işləri aparılmışdır.

İşçilərin əməkhaqqının ödənişi ilə əlaqədar Respublikanın müxtəlif sahələri üzrə hazırlanıb tətbiq edilən sahə sorğu kitablarında aparılmış dəyişikliklər və əlavələrlə əlaqədar yaranan uyğunsuzluqlar barədə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə təkliflər göndərilmişdir.

Təhsil müəssisələrinin rəhbər işçilərinə və baş mühasiblərinə köməklik məqsədilə ayrı-ayrı sahə nazirlikləri tərəfindən hazırlanmış və müvafiq qaydalara uyğun təsdiq edilmiş sorğu kitablarında göstərilən bəzi vəzifələrin və bütün sahələr üçün ümumi olan qulluqçu və fəhlə peşələri üzrə sorğu kitablarından təhsil müəssisələrində çalışanların əmək funksiyalarına və ödəniş vəzifələrinə dair göstəricilər metodiki vəsait kimi çap edilməsi üçün hazırlanmışdır.

Hesabat ilində fərdi qaydada yüzlərlə təhsil işçisinin müraciətləri dinlənilmiş, onları maraqlandıran məsələlərə aydınlıq gətirilmişdir.

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi, həmçinin Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi ilə birgə hazırlanıb müvafiq qaydada təsdiq edilən sahə sorğu kitablarına irad və təkliflər hazırlanıb həmin nazirliklərə göndərilmişdir.

Təhsil müəssisələrinin pedaqoji işçilərinin dərs yükü normalarının müəyyən edilməsi haqqında Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2010-cu il 24 noyabr tarixli 215 nömrəli qərarının icrası ilə əlaqədar rayon (şəhər) təhsil şöbələrinin və ayrı-ayrı təhsil müəssisələrinin müraciətlərinə müvafiq izahatlar verilməklə yanaşı yeni dərs yükü normalarının tədbiqi ilə bağlı tövsiyələr verilir.

Hesabat ilində dərs yükü, əməkhaqqının və əlavə haqların ödənişi, iş vaxtı, məzuniyyətin hesablanması və digər məsələlərlə bağlı Azərbaycan Respublikası Prezidentinin Administrasiyasından, Nazirlər Kabinetindən, Milli Məclisdən daxil olan onlarla məktub və ərizələrdə göstərilən məsələlər araşdırılmış və müəlliflərə müvafiq cavab göndərilmişdir. Bundan əlavə təhsil şöbələrindən, ayrı-ayrı təhsil müəssisələrindən və təhsil işçilərindən əməkhaqqının ödənişi ilə əlaqədar yüzlərlə məktub və ərizələrə vaxtında cavab hazırlanıb göndərilmişdir.

.

**IX.Əsaslı tikinti, təmir işləri və əmlak məsələləri.**

Dövlət İnvestisiya Proqramına əsasən, həmçinin digər maliyyə mənbələri hesabına yeni məktəblərin, əlavə sinif otaqlarının tikintisi və əsaslı təmiri üzrə faktiki materiallar toplanmış və ümumiləşdirərək hesabat şəklində rəhbərliyə təqdim olunmuşdur.

. Dövlət Proqramına uyğun olaraq Respublikanın ərazisində 2010-cu ildə tikiləcək yeni məktəblər üçün yerlərdə torpaq sahəsinin ayrılmasına nail olunmuşdur.Bununla bağlı aidiyyəti Rayon icra Hakimiyyətlərinə müvafiq məktublar göndərilmiş, bu barədə arayışlar toplanmış, çizgilər araşdırılmış və təkrarən yoxlanılmışdır.

Təhsil Nazirliyinin tabeliyində olan tədris müəssisələrinin mövcud daşınmaz əmlakının vəziyyəti və hərəkəti barədə məlumatların Əmlak Məsələləri Dövlət Komitəsinə vaxtında verilməsi, bunun üçün müvafiq tədbirlərin görülməsi, yerlərə çatdırılması və bu məsələnin nəzarətdə saxlanılması təmin edilmişdir.

2010-cu ildə Respublikada yeni ümumi təhsil məktəblərinin tikintisi, mövcud məktəblərinin əsaslı təmiri və müasir tədris avadanlığı ilə təmin olunmasına dair Dövlət Tikinti Proqramına uyğun olaraq bütün rayonlarla daim əlaqə yaradılmış və mövcud vəziyyət nəzarətdə saxlanılmışdır.

Nazirliyin tabeliyində olan tədris müəssisə, idarə və təşkilatların payız-qış mövsümünə hazırlığı ilə bağlı əmr hazırlanmış, yerlərə göndərilmiş və müvafiq məlumatlar toplanılmışdır.

Texniki pasportların hazırlanması ilə bağlı Baş Dövlət İnventarlaşdırma və Mülkiyyət hüquqlarının qeydiyyatı İdarəsinə müraciət edilməsi üçün müəssisə rəhbərləri rəsmi məlumatlandırmış və bu məqsədlə təşkilatlara lazımi köməklik göstərilmişdir.

Tədris müəssisə, idarə və təşkilatlarının maddi-texniki bazasına aid olan mülkiyyətin (əsas fondların) balansdan silinməsinə dair Nazirlər Kabinetinin 04.11.2004-cü il tarixli, 177 nömrəli sərəncamı ilə təsdiq edilmiş “Qaydalar”a müvafiq olaraq zəruri işlər həyata keçirilmişdir.

Respublikanın ərazisində tam yararsız vəziyyətdə olan məktəblərin siyahısı toplanmış, rəhbərliyə və Nazirlər Kabinetinə təqdim edilmişdir.

“Heydər Əliyev Fondu” tərəfindən “Yeniləşən Azərbaycana Yeni Məktəb” layihəsi çərçivəsində Ağstafa, Tovuz, Samux, Goranboy,Göygöl, Kürdəmir, Ucar, Ağdaş, İmişli və Lerik rayonlarında inşa edilmiş yeni məktəb binalarının sənədləşdirilməsi ilə bağlı tədbirlər görülmüşdür.

2010-cu ildə Respublikanın bütün şəhər və rayon Təhsil Şöbələrinə 10.08.2010-cu il tarixli, 46-17-4805/16 nömrəli sirkulyar məktub hazırlanmış, Təhsil Nazirliyinin tabeliyində olan bütün tədris müəssisələrinin rəhbərlərinə müraciət olunmuş və ildə bir dəfə (3 nömrəli qiymətli metallar forma) Azərbaycan Respublikası Maliyyə Nazirliyinə təqdim edilməsi tapşırılmışdır.

13.04.2010-cu il tarixli, 46-17-2149/16 nömrəli sirkulyar məktubla Təhsil Nazirliyinin bütün tədris müəssisələrinə müraciət olunmuş və Azərbaycan Respublikamızın Prezidentinin 10.02.2010-cu il tarixli,215 nömrəli Fərmanına əsasən bələdiyyələrin xəritələrinin hazırlanması məqsədilə bələdiyyə ərazilərində yerləşən və qanunla müəyyən edilmiş qaydada dövlət mülkiyyətində olan torpaqlar üzrə ( o cümlədən həmin torpaqların plan və sxemləri) hazırlanmış məlumatları Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinə və Əmlak Məsələləri Dövlət Komitəsinə təqdim edilməsi tapşırılmışdır.

26.04.2010-cu il tarixli, 11/222 nömrəli əmrə müvafiq olaraq Ucar rayon Qazıqumlaq kənd 1 nömrəli orta məktəbin köhnə binasının silinməsi ilə bağlı yaradılmış komissiya ilə birlikdə müvafiq tədbirlər görülmüş və həmin məktəb binası Əmlak Məsələləri Dövlət Komitəsinin razılığı ilə balansdan silinmişdir. Hal-hazırda həmin ərazidə “Heydər Əliyev Fondu”nun vəsaiti hesabına 360 şagird yerlik məktəb binası tikilir.

11.06.2010-cu il tarixli, 11/317 nömrəli əmrə müvafiq olaraq təbii fəlakətlə bağlı yaradılmış komissiya ilə birlikdə tədris müəssisələrinə baxış keçirilmiş və ziyan dəymiş binaların qiymətləndirilməsi ilə bağlı lazımi sənədlər hazırlanmışdır.

27.07.2010-cu il tarixli, 46-17-4565/16 nömrəli sirkulyar məktubla Təhsil Nazirliyinin bütün tədris müəssisələrinə müraciət olunmuş və Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin 02.07.2010-cu il tarixli, 11/30-303 nömrəli məktubuna əsasən əməyin mühafizəsi barədə məlumatların təqdim edilməsi tapşırılmışdır.

30.08.2010-cu il tarixli, 11/571 nömrəli əmrə müvafiq olaraq Balakən rayonunun Katex 2 nömrəli kənd orta məktəbin köhnə binasının silinməsi ilə bağlı müvafiq tədbirlər görülmüş və həmin məktəb binasının silinməsi Əmlak Məsələləri Dövlət Komitəsi ilə razılaşdırılmışdır. Hal-hazırda həmin ərazidə Təhsil Nazirliyinin Əsaslı Tikinti İdarəsi tərəfindən 260 şagird yerlik məktəb binası tikilir.

Baş nazirin müavini cənab Abid Şərifovun 19 oktyabr 2010-cu il tarixli, 312s nömrəli Sərəncamına və 08 oktyabr 2010-cu il tarixli, 12/7-103 nömrəli telefonoqrama əsasən respublikamızın ərazisində fəaliyyət göstərən təhsil və səhiyyə obyektlərinin 2010/2011-ci illərin payız-qış mövsümünə hazırlıq vəziyyətinə yerlərdə baxış keçirilməsi məqsədi ilə yaradılmış işçi qrupunun tərkibində şöbənin 3 əməkdaşı 15 gün müddətinə aidiyyəti rayonlara ezam olunmuş və tələb olunan sənədlər hazırlanaraq Nazirlər Kabinetinə təqdim olunmuşdur.

2010-cu ildə Respublikanın bütün şəhər və rayon Təhsil Şöbələrinə 10.08.2010-cu il tarixli, 46-17-4805/16 nömrəli sirkulyar məktub göndərilərək ümumi təhsil məktəbləri üçün tikilmiş yeni binalar və əlavə sinif otaqları, həmçinin əsaslı və cari təmir işləri barədə məlumatlar əldə olunmuş, araşdırılmış və ümumiləşdirilərək rəhbərliyə təqdim edilmişdir.

Hesabat ilində əmlak məsələləri ilə bağlı Prezidentinin İcra Aparatından daxil olmuş 12, Azərbaycan Respublikasının Milli Məclisdən və Nazirlər Kabinetindən daxil olmuş 31, Rayon İcra Hakimiyyətlərindən, Nazirliklərdən, İdarələrdən, Təşkilatlardan (həmçinin ərizə, şikayət və məktublar) daxil olmuş 468 məktub araşdırılmış və cavablandırılmışdır.

Azərbaycan Respublikasının Prezident Administrasiyasından daxil olmuş 27 iyul 2010-cu il tarixli, 2/665 nömrəli məktuba əsasən "Dövlət əmlakının qorunub saxlanılması və səmərəli istifadə edilməsinin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 06 iyun 207-ci il tarixli, 586 nömrəli Fərmanının və həmin Fərmanla təsdiq edilmiş "Azərbaycan Respublikasında dövlət əmlakının idarə edilməsinin təkmilləşdirilməsi üzrə Dövlət Proqramı"nın icrası ilə əlaqədar görülmüş işlər barədə məlumatlar müvafiq forma üzrə hazırlanaraq Prezidentin Administrasiyasına təqdim edilmişdir.

**X. Ali təhsildə yeni maliyyələşmə mexanizminin tətbiqi.**

Məlum olduğu kimi, ölkə Prezidentinin "Ali təhsil müəssisələrində yeni maliyyələşmə mexanizminin tətbiq edilməsi barədə" 10 fevral 2010-cu il tarixli Fərmanına əsasən 2010-2011-ci tədris ilindən başlayaraq Azərbaycan Respublikası ərazisində fəaliyyət göstərən ali təhsil müəssisələrində dövlət büdcəsinin vəsaiti hesabına maliyyələşdirmə dövlət sifarişi əsasında adambaşına maliyyələşdirmə prinsipi əsasında həyata keçirilməyə başlanılmışdır.

Ali təhsildə yeni maliyyələşmə mexanizminin tətbiqi ilə əlaqədar cari il ərzində xeyli işlər görülmüşdür.

Belə ki, ali təhsil müəssisələrində bir tələbəyə düşən xərclər, adambaşına maliyyələşmə mexanizminin ölkəmizdə tətbiqinin mümkün variantları, beynəlxalq təcrübə, barədə məlumatlar və bu mexanizmin tətbiqi ilə bağlı təkliflər hazırlanmış və Maliyyə Nazirliyinin mütəxəssisləri ilə birlikdə müzakirə edilmişdir.

Cari ilin yanvar ayının 14-də "Park İnn" otelində "Ali təhsildə maliyyələşdirmə mexanizmi" mövzusunda seminar keçirilmiş və bu seminar üçün respublikamızın ali təhsil sistemi, ölkədə fəaliyyət göstərən ali təhsil müəssisələri, ali təhsilə dövlət büdcəsindən ayrılan vəsait və s. haqqında ətraflı məlumatları özündə əks etdirən təqdimat hazırlanmışdır.

Bundan əlavə "Ali təhsil müəssisələrində yeni maliyyələşmə mexanizminin tətbiq edilməsi barədə" Prezident Fərmanının layihəsi hazırlanmış və bu layihənin razılaşdırılmaq üçün müvafiq strukturlara təqdim olunması təmin edilmişdir.

Prezidentin "Ali təhsil müəssisələrində yeni maliyyələşmə mexanizminin tətbiq edilməsi barədə" 10 fevral 2010-cu il tarixli Fərmanın 4.2-ci bəndinə əsasən aidiyyəti sahə nazirlikləri ilə razılaşdırılmaqla 2010/2011-ci tədris ili üçün ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrinə ölkənin milli, mədəni, humanitar və tarixi dəyərləri, mövcud əmək bazarının xüsusiyyətləri və dövlətin perspektiv inkişafı amilləri nəzərə alınmaqla dövlət sifarişinə dair təkliflər Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim olunmuşdur.

Eyni zamanda ölkə Prezidentinin qeyd olunan 10 fevral 2010-cu il tarixli Fərmanının 4.3-cü və 5.1-ci bəndlərinə əsasən Azərbaycan Respublikası Nazirlər Kabinetinə dövlət sifarişinə

uyğun olaraq aidiyyəti nazirliklərin təqdim etdiyi təkliflər əsasında ali təhsil müəssisələrinin 2010/2011-ci tədris ili üçün ayrı-ayrı ixtisaslar üzrə dövlət sifarişi ilə bakalavriat və magistratura səviyyələrinə tələbə qəbulunun proqnozunun təsdiq edilməsi tapşırılmışdır. Qeyd olunan bəndlərin icrası ilə əlaqədar olaraq Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq 132s və 133s nömrəli 06 may 2010-cu il tarixli sərəncamlarına əsasən 2010/2011-ci tədris ili üçün ayrı-ayrı ixtisaslar üzrə dövlət sifarişi ilə bakalavriat və magistratura səviyyələrinə tələbə qəbulunun proqnozları təsdiq olunmuşdur.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin qeyd olunan sərəncamlarına əsasən ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrinə tələbə qəbulu planının sayı ümumi şəkildə (dövlət sifarişi və ödənişli əsaslarla birlikdə) hər bir ali təhsil müəssisəsi üzrə ayrı-ayrılıqda da təsdiq olunmuşdur.

Tələbə qəbulunun təsdiq olunmuş proqnozlarına əsasən 2010/2011-ci tədris ili üçün ali təhsil müəssisələrinin bakalavr səviyyəsinə dövlət sifarişi ilə tələbə qəbulunun ümumi proqnozu 26249, o cümlədən dövlət sifarişi üzrə tələbə qəbulunun proqnozu 10529 təşkil edir. Məlumat üçün qeyd edək ki, 2009/2010-cu tədris ilində dövlət sifarişi ilə tələbə qəbulu planı 10942 və ümumi qəbul planı isə 25331 olmuşdur.

2010/2011-ci tədris ili üçün ali təhsil müəssisələrinin magistratura səviyyəsinə isə dövlət sifarişi ilə tələbə qəbulunun proqnozu 2070, ümumi qəbul planı isə 4023 təşkil edir.2009/2010-cu tədris ilində dövlət sifarişi ilə tələbə qəbulu planı 2021, ümumi qəbul planı isə 4063 təşkil etmişdir. 2010/2011-ci tədris ili üçün dövlət sifarişinin yerinə yetirilməsində ölkədə fəaliyyət göstərən 52 ali təhsil müəssisəsindən 42-si (o cümlədən 29-u dövlət, 13-ü isə özəl olmaqla) iştirak etmişdir.

Fərmanın 6-cı bəndinin icrası ilə əlaqədar "Ali təhsil müəssisələrində yeni maliyyələşmə mexanizminin tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 25 iyun 2010-cu il tarixli, 120 nömrəli Qərarının layihəsi hazırlanmış, müvafiq Nazirliklərlə müzakirə edilmişdir.

Bu qərarla aşağıdakı əsas sənədlər təsdiq olunmuşdur:

- "Ayrı-ayrı ixtisaslar üzrə dövlət sifarişi ilə ali təhsil müəssisələrinin bakalavriat səviyyəsində hər bir təhsilalana düşən təhsil xərclərinin miqdarı";
- "Ayrı-ayrı ixtisaslar üzrə dövlət sifarişi ilə ali təhsil müəssisələrinin magistratura səviyyəsində hər bir təhsilalana düşən təhsil xərclərinin miqdarı";
- "Azərbaycan Respublikasında ali təhsil müəssisələrində yeni maliyyələşmə mexanizminin tətbiqi ilə bağlı dövlət sifarişi ilə ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində kadr hazırlığının maliyyələşdirilməsi Qaydaları";
- Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə ali təhsil müəssisəsi arasında nümunəvi çərçivə müqaviləsi;
- Ali təhsil müəssisəsi ilə dövlət sifarişi ilə təhsil alacaq təhsilalan arasında nümunəvi fərdi müqavilə;

Bundan əlavə cari ilin iyun ayının 17-də yeni maliyyələşdirmə mexanizminin tətbiqi ilə bağlı ölkə başçısının müvafiq Fərmanının icrası vəziyyəti, bununla əlaqədar qüvvəyə minəcək yeni qaydalar, mövcud problemlər, qarşıya çıxa biləcək risklər, həmçinin bu problemlərin həlli və risklərin aradan qaldırılması yolları barədə təkliflər mövzusunda Azərbaycan Respublikasının Prezidenti yanında Təhsil üzrə komissiyanın sədri, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyevin iştirakı ilə ali təhsil müəssisələrinin yeni maliyyələşmə mexanizminə dair keçirilən müşavirə üçün müvafiq məlumatlar və təqdimat hazırlanmışdır. Müşavirədə Təhsil, Maliyyə və İqtisadi İnkişaf Nazirliklərinin, həmçinin əksər ali məktəblərin rəhbərləri səviyyəsində geniş şəkildə müzakirə aparılmış və yuxarıda adı çəkilən bir çox məsələlərə aydınlıq gətirilmişdir. Qeyd olunan müşavirədə Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev, Təhsil Naziri Misir Mərdanov, Maliyyə Naziri Samir Şərifov, İqtisadi İnkişaf Naziri Şahin Mustafayev və bir sıra ali məktəblərin rektorları çıxış edərək ali təhsildə tətbiq olunacaq yeni maliyyələşdirmə mexanizminin əhəmiyyətindən, bu yeniliklərin müvafiq dövlət qurumları, həmçinin ali məktəblər

qarşısında qoyduğu vəzifələrdən söz açmışdır. Bundan sonra aidiyyəti qurumlar tərəfindən görüləcək işlər barədə əlavə müzakirələr də aparılmışdır.

22 oktyabr 2010-cu il tarixdə Təhsil Nazirliyində Təhsil, Maliyyə, İqtisadi İnkişaf Nazirlərinin, Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının sədrinin, Respublika Nazirlər Kabinetinin şöbə müdirinin, dövlət sifarişinin yerinə yetirilməsində iştirak etmiş ali məktəb rektorlarının və digər aidiyyəti şəxslərin iştirakı ilə "Ali təhsildə yeni maliyyələşmə mexanizminin tətbiqi ilə bağlı mövcud vəziyyət, təkliflər və qarşıda duran vəzifələr" haqqında keçirilmiş kollegiya iclası üçün müvafiq məlumatlar və təqdimat hazırlanmış və bu iclasda mövcud problemlərin aradan qaldırılması ilə bağlı aşağıdakı təkliflər müzakirə olunmuşdur:

- Dövlət sifarişi əsasında təhsil alanlar üçün müəyyənləşdirilmiş xərc məbləğinin artırılması;
- Paytaxtdan kənarda yerləşən ali məktəblər üçün dövlət sifarişi ilə müsabiqə balının ayrıca müəyyənləşdirilməsi;
- Dövlət əhəmiyyətli ixtisaslara dövlət sifarişi ilə qəbul zamanı müsabiqə balları müəyyənləşdirilməsinə fərdi yanaşılması;
- Ayrı-ayrı ali məktəblərə qəbul planı müəyyənləşdirilərkən əvvəlki ilin qəbulunun nəticələrinin nəzərə alınması;
- Ali məktəblərin ayrı-ayrı ixtisaslarına ödənişli əsaslarla qəbul olunan tələbələrin təhsil haqqı məbləğinin həmin ixtisasa dövlət sifarişi üzrə təsdiq olunmuş xərc məbləğinin 60%-dən az olmayaraq müəyyənləşdirilməsi;
- Ali məktəblərin bəzi ixtisaslarına olan inhisarçılığın aradan qaldırılması;
- Ödənişli əsaslarla qəbul olan məcburi köçkünlərin təhsil haqlarının müvafiq qaydada kompensasiya edilməsi;
- Dövlət sifarişi üzrə qəbulda müsabiqə ballarının ixtisas qrupları üzrə deyil, yniyönümlü ixtisaslar üzrə müəyyənləşdirilməsi (məsələn kənd təsərrüfatı, texnologiya, neft, aviasiya və s.);
- Özəl ali məktəblərin dövlət sifarişində iştirakının stimullaşdırılması;
- Büdcədənkənar vəsaitlərin 4 xərc maddəsi üzrə, gələcəkdə isə ümumi məbləğ səviyyəsində planlaşdırılması, ilin sonuna qalan vəsaitlərin növbəti ilə keçirilməsi və bu vəsaitlərin xərclənilməsində ali məktəblərin səlahiyyətlərinin artırılması.

Ödənişli əsaslarla qəbul olunan və Prezidentin müvafiq Sərəncamı əsasında təhsil haqlarından azad olunan məcburi köçkün və qaçqın statuslu tələbələrin təhsil xərclərinin kompensasiya olunması ilə bağlı kollegiyada müzakirə olunan təklifə Respublika Maliyyə Nazirliyi tərəfindən müsbət yanaşılmış və bu xərclərin büdcədən əlavə olaraq ödənilməsi qərara alınmışdır. Bununla bağlı Respublika Maliyyə Nazirliyinin rəsmi müraciətinə əsasən hər bir dövlət ali məktəb üzrə bu barədə müvafiq cədvəl üzrə qısa müddət ərzində məlumatların təqdim olunması xahiş edilmiş və bu məlumatlar ümumiləşdirilərək Respublika Maliyyə Nazirliyinə təqdim olunmuşdur.

Kollegiya iclasında müzakirə olunmuş təkliflərin əsaslandırılmış şəkildə Hökumətə təqdim edilməsi ilə əlaqədar Təhsil, Maliyyə, İqtisadi İnkişaf Nazirliklərinin və Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının mütəxəssislərindən ibarət işçi qrupunun yaradılması qərara alınmışdır və bununla bağlı hal-hazırda təşkilati işlər görülür.

Qeyd olunanlarla yanaşı yeni maliyyələşmə mexanizminin tətbiqi ilə əlaqədar bir sıra qəzet və jurnallarda mütəmadi çıxışlar edilmiş və məqalələr dərc edilmiş, Azərbaycan Dövlət Televiziyasında "Günün nəbzi" və İctimai televiziyada "Açıq dərs" verlişlərində bu mövzu geniş müzakirə olunmuşdur.

Dövlət sifarişinin yerinə yetirilməsində iştirak edən ali məktəblərlə Təhsil Nazirliyi arasında müqavilələrin bağlanılması prosesi başa çatdırılmışdır. Bağlanmış bu müqavilələr əsasında ali məktəblərlə tələbələr arasında da müvafiq müqavilələr bağlanılmışdır.

Respublika Maliyyə Nazirliyi tərəfindən "Azərbaycan Respublikası ərazisində fəaliyyət göstərən ali təhsil müəssisələrində I kurs bakalavriat və magistratura səviyyələri üçün dövlət

büdcəsinin vəsaiti hesabına maliyyələşmənin dövlət sifarişi əsasında həyata keçirilməsi məqsədilə cari ilin sonunadək əlavə tələb olunan vəsaitin (2010-cu ilin sentyabr-dekabr ayları üçün, illik məbləğin 3-dən biri həcmində) bölgüsü"nə əsasən Təhsil Nazirliyi tərəfindən Maliyyə Nazirliyinə sifariş hazırlanmış və müvafiq məbləğdə vəsait Təhsil Nazirliyinin hesabına köçürülmüşdür.

Təsdiq olunmuş bölgüyə uyğun olaraq Təhsil Nazirliyinin sərəncamına əsasən adları aşağıda qeyd olunan müvafiq ali məktəblərin hesabına köçürülmüş və bu vəsaitlərin təyinatı üzrə xərclənilməsi ilə əlaqədar həmin ali məktəblərə tapşırıqlar verilmişdir:

| S/N | Ali təhsil müəssisəsinin adı | Məbləğ, manatla |
|---|---|---|
| 1 | Bakı Dövlət Universiteti | 1188633 |
| 2 | Azərbaycan Dövlət İqtisad Universiteti | 779100 |
| 3 | Azərbaycan Dövlət Neft Akademiyası | 706233 |
| 4 | Azərbaycan Dövlət Pedaqoji Universiteti | 404900 |
| 5 | Azərbaycan Dillər Unversiteti | 370500 |
| 6 | Azərbaycan Texniki Universiteti | 351233 |
| 7 | Azərbaycan Tibb Universiteti | 310500 |
| 8 | Azərbaycan Memarlıq və İnşaat Unversiteti | 293600 |
| 9 | "Qafqaz" Unversiteti | 170300 |
| 10 | Naxçıvan Dövlət Universiteti | 166567 |
| 11 | Gəncə Dövlət Universiteti | 163467 |
| 12 | Bakı Misiqi Akademiyası | 151667 |
| 13 | Azərbaycan Dövlət Aqrar Universiteti | 58867 |
| 14 | Azərbaycan Müəllimlər İnstitutu | 34000 |
| 15 | Azərbaycan Müəllimlər İnstitunun Sumqayıt filialı | 30500 |
| 16 | Azərbaycan Müəllimlər İnstitunun Şəki filialı | 17500 |
| 17 | Azərbaycan Müəllimlər İnstitunun Gəncə filialı | 12500 |
| 18 | Azərbaycan Müəllimlər İnstitunun Zaqatala filialı | 5500 |
| 19 | Azərbaycan Müəllimlər İnstitunun Mingəçevir filialı | 7500 |
| 20 | Azərbaycan Müəllimlər İnstitunun Ağcabədi filialı | 3500 |
| 21 | Azərbaycan Müəllimlər İnstitunun Qazax filialı | 9500 |
| 22 | Azərbaycan Müəllimlər İnstitunun Salyan filialı | 1500 |
| 23 | Azərbaycan Müəllimlər İnstitunun Cəlilabad filialı | 4000 |
| 24 | Azərbaycan Müəllimlər İnstitunun Şamaxı filialı | 500 |
| 25 | Azərbaycan Müəllimlər İnstitunun Quba filialı | 2000 |
| 26 | Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası | 118000 |
| 27 | Azərbaucan Dövlət Mədəniyyət və İncəsənət Universiteti | 99467 |
| 28 | Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası | 98267 |
| 29 | Azərbaycan Turizm İnstitutu | 96167 |
| 30 | Bakı Slavyan Universiteti | 92800 |
| 31 | Milli Aviasiya Akademiyası | 91000 |
| 32 | Azərbaycan Rəssamlıq Akademiyası | 46233 |
| 33 | Sumqayıt Dövlət Universiteti | 44133 |
| 34 | Azərbaycan Dəniz Akademiyası | 37200 |
| 35 | Azərbaycan Milli Konservatoriyası | 25833 |
| 36 | Lənkəran Dövlət Universiteti | 20500 |

| | | |
|---|---|---|
| **37** | Naxçıvan Müəllimlər İnstitutu | 18500 |
| **38** | Mingəçevir Politexnik İnstitutu | 14300 |
| **39** | Xəzər Universiteti | 12800 |
| **40** | Azərbaycan Texnologiya Universiteti | 6033 |
| **41** | "Azərbaycan" Unversiteti | 6500 |
| **42** | Azərbaycan Kooperasiya Universiteti | 5433 |
| **43** | Qərb Unversiteti | 4100 |
| **44** | "Odlar Yurdu" Universiteti | 600 |
| | **Cəmi** | **6081933,0** |

Bundan əlavə cari ilin dekabrın 3-də Təhsil Nazirliyində şöbənin təşəbbüsü və təşkilatçılığı əsasında Aparatının rəhbəri İlham Pirməmmədovun, İqtisadiyyat şöbəsinin müdiri Şahrza Əliyevin və Maliyyə Nazirliyinin Sosial sahələrin maliyyəsi şöbəsinin müdiri Xaqani Rzayevin iştirakı ilə ali təhsil müəssisələrində yeni maliyyələşmə mexanizminin tətbiqi, qarşıya çıxan problemlər, onların həlli yolları və təkliflər" mövzusunda 2010/2011-ci tədris ilində dövlət sifarişinin yerinə yetirilməsində iştirak etmiş ali məktəblərin baş mühasiblərinin seminar-müşavirəsi keçirilmişdir. Seminar-müşavirədə ölkə Prezidentinin "Ali təhsil müəssisələrində yeni maliyyələşmə mexanizminin tətbiq edilməsi barədə" 10 fevral 2010-cu il tarixli Fərmanına əsasən Respublika Maliyyə Nazirliyinin bilavasitə dəstəyi ilə görülən konkret işlər barədə məlumatlar təqdim olunmuş, "Ali təhsil müəssisələrində yeni maliyyələşmə mexanizminin tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 25 iyun 2010-cu il tarixli, 120 nömrəli Qərarı ilə təsdiq olunmuş bir sıra qaydaların və sənədlərin tələblərinin baş mühasiblər tərəfindən öyrənilməsinin zəruriliyini diqqətə çatdırmış, Respublika Maliyyə Nazirliyi tərəfindən "Azərbaycan Respublikası ərazisində fəaliyyət göstərən ali təhsil müəssisələrində I kurs bakalavriat və magistratura səviyyələri üçün dövlət büdcəsinin vəsaiti hesabına maliyyələşmənin dövlət sifarişi əsasında həyata keçirilməsi məqsədilə cari ilin sonunadək əlavə tələb olunan vəsaitin (2010-cu ilin sentyabr-dekabr ayları üçün, illik məbləğin 3-dən biri həcmində) bölgüsü"nə əsasən müvafiq məbləğdə vəsaitlərin Təhsil Nazirliyi tərəfindən ali məktəblərin hesablarına köçürülmüş vəsaitlərin təyinatı üzrə xərclənilməsi ilə əlaqədar baş mühasiblərin qarşısında duran vəzifələrdən söz açılmış və onlara bir sıra tapşırıq və tövsiyyələr verilmişdir.

Seminar-müşavirədə ali məktəblərə dövlət sifarişi üzrə kadr hazırlığı ilə əlaqədar köçürülmüş vəsaitlərdən daha səmərəli istifadəni təmin etmək məqsədilə bu vəsaitlərin ilin sonunda büdcəyə silinməməsi ilə bağlı təkliflər müzakirə edilmiş və bu məsələ Maliyyə Nazirliyi tərəfindən müsbət həll edilmişdir.

**XI.Təhsil Sektorunun İnkişafı Layihəsinin "Məktəb şəbəkəsinin rasionallaşdırılması və şagirdbaşına maliyyələşdirmə islahatları" alt-komponenti çərçivəsində görülən işlər barədə.**

İl ərzində alt-komponentin icra planına uyğun olaraq bir sıra tədbirlər həyata keçirilmişdir. Belə ki, alt-komponent çərçivəsində seçilmiş beynəlxalq məsləhətçi Cahangir Abdusamatov cari ilin 19-30 aprel tarixlərində Azərbaycan Respublikasında umumi təhsilin maliyyələşdirilməsi və adambaşına maliyyələşdirmə islahatlarının qiymətləndirilməsini həyat keçirmiş və bununla bağlı şöbə tərəfindən beynəlxalq məsləhətçi bütün lazımi məlumatlarla təmin edilmiş və müvafiq Nazirliklərlə, təşkilatlarla görüşlər təşkil edilmişdir.

Beynəlxalq məsləhətçi 3 pilot rayonunda keçirilmiş islahatın qiymətləndirilməsi, ölkədə ümumi təhsil məktəbləri üzrə müəllimlərin mövcud əmək haqqı sistemi və islahatın qiymətləndirilməsinin nəticələri və bir sıra təkliflər barədə məlumatları özündə əks etdirən hesabat təqdim olunmuş və hesabat müsbət qiymətləndirilmişdir.

Məktəb şəbəkəsinin rasionallaşdırılması ilə bağlı şöbə tərəfindən il ərzində bir sıra tədbirlər görülmüşdür.

Alt-komponent çərçivəsində görülmüş işlər barədə hesabatlar LƏQ-ə təqdim olunmuşdur.

Bundan əlavə Ali təhsil layihəsinin hazırlanması üçün PHRD (Strategiyanın və kadr ehtiyatlarının hazırlanması) Qrantı çərçivəsində seçilmiş beynəlxalq məsləhətçi Bəhram Bexradniyanın cari ilin iyul və sentyabr aylarında Azərbaycana səfərləri dövründə o, ali təhsildə yeni maliyyələşdirmə mexanizminin tətbiqi ilə bağlı araşdırma aparmışdır. Bununla bağlı beynəlxalq məsləhətçi tələb olunan bütün məlumatlarla təmin olunmuş, onun fəaliyyəti üçün lazımi şərait yaradılmış və bir sıra Nazirliklərdə, ali məktəblərdə və digər müvafiq təşkilatlarda görüşlər təşkil edilmişdir.

Beynəlxalq məsləhətçi tərəfindən hesabat Azərbaycanda ali təhsil sistemi və adambaşına maliyyələşdirmənin tətbiqinin vəziyyəti, mövcud problemlər və bu problemlərin aradan qaldırılması ilə bağlı bir sıra təkliflər barədə hesabatlar təqdim olunmuşdur.

**XII. İnzibati, metodiki və digər işlər.**

Hesabat dövründə Nazirliyin “Qaynar xətti”nə bir sıra təhsil müəssisələrində əməkhaqlarının, təqaüdlərin ödənilməməsi və ya gecikdirilməsi ilə bağlı daxil olmuş məlumatlar dərhal araşdırılmış, bu işdə təqsiri olan şəxslər barəsində inzibati tənbeh cəzalarının tətbiq edilməsi təmin edilmiş və bir neçə baş mühasib vəzifəsindən uzaqlaşdırılmışdır.

Bundan əlavə Baş nazirin 05 mart 2010-cu il tarixli 17/903-14/11/10/22/12/18 nömrəli tapşırığına əsasən “Nəzarət tədbirlərinin nəticələrinə əsasən Hesablama Palatası tərəfindən hazırlanmış təkliflər” həm Təhsil Nazirliyində, həm də Hesablama Palatasının mütəxəssisləri ilə müzakirə edilmiş, müvafiq tədbirlər görülmüş, bununla bağlı Nazirlər Kabinetinə müvafiq məktublar göndərilmişdir.

İl ərzində bir sıra nazirliklərin, təşkilatların və həmçinin qeyri-hökumət təşkilatlarının dəvətinə və rəhbərliyin göstərişlərinə əsasən şöbənin əməkdaşları bir sıra seminarlarda, konfranslarda iştirak etmişlər. Bundan əlavə hesabat ilinin əvvəlində şöbənin Plan-maliyyə sektorunun müdiri Vüqar Əsgərov ABŞ Departamentinin ABŞ-da “Ali təhsilin idarəolunması” mövzusunda təşkil etdiyi mübadilə proqramında iştirak etmişdir.

İl ərzində təhsilin iqtisadiyyatı, yeni maliyyələşdirmə mexanizmləri və digər müxtəlif məsələlər barədə şöbə tərəfindən “Maliyyə və Uçot”, “Təhsil”, “İqtisadiyyat və həyat” “Azərbaycan məktəbi” jurnallarında, “Azərbaycan müəllimi”, “Respublika”, “Yeni Azərbaycan” və digər qəzetlərdə geniş məqalələr şəklində çıxışlar edilmişdir.